


## Füzuli Hava Limanının əhəmiyyəti nədən ibarətdir?

10

SƏS
№ 197 (6397) 28 oktyabr 2021-ci il. Qiymәti 40 qәpik



2

# Kilidlərin açarı iki qardaş ölkədədir!

*Dini bir, dili bir, milli mənsubiyyəti, adət-ənənələri bir və tarixən çox böyük bağları olan iki qardaş ölkənin, Türkiyə və Azərbaycanın getdikcə daha da yaxın olduğunu, strateji müttəfiqliyini bütün dünya müşahidə edir, heç şübhəsiz ki, bu müşahidələr də müvafiq nəticələrin hasil edilməsi üçün yetərlidir.*

# Mümkün üçtərəfli görüşün pərdə arxası detalları nə ola bilər?



10

*"Rusiyanın vasitəçiliyi ilə Azərbaycan və Ermənistan arasında üçtərəfli bəyanatın imzalanmasından bir il keçsə də Ermənistanın üzərinə götürdüyü və icra etməsi şərt olan məsələlərin həlli gecikir. Azərbaycanın təklif etdiyi şərtlər bəllidir: sərhədlərin delimitasiya və demarkasiyası, qarşılıqlı olaraq Ermənistanın və Azərbaycanın bir-birinin ərazi bütövlüyünü tanıması və sonda böyük sülh sazişinin imzalanması".*

## “Bərdəyə raket hücumuna görə cavabdeh olanlar məsuliyyət daşımalıdırlar”



8

## VİRUS TƏHLÜKƏSİ:
### Məktəblər yenidən bağlanır?

*“İlk növbədə qeyd edim ki, 29 sentyabrdan etibarən ali təhsil müəssisələrində tədrisin bərpa edilməsi təbii olaraq yoluxmaya öz təsirini göstərəcəkdi. Rəqəmlərə baxdıqda görürük ki, heç də ali təhsil müəssisələrində vəziyyət o qədər də təhlükəli deyil. Lakin, təbii olaraq qabaqlayıcı tədbirlər görülməlidir”. Bu sözləri SİA-ya açıqlamasında təhsil eksperti Kamran Əsədov deyib.*

7



## İDDİA: Yurgen Klopp “Barselona”nı çalışdıracaq

Həm futbol üzrə İspaniya La Liqasında, həm də UEFA Çempionlar Liqasında üzücü nəticələr göstərən ”Barselona”, gələn mövsüm baş məşqçisini dəyişməyi planlaşdırır. ”Sport.es” xəbər verir ki, Ronald Kumanın əvəzləyicisi kimi əsas namizəd ”Liverpul”un baş məşqçisi Yurgen Kloppdur...

16

## Şuşadan gələn “SƏS”imiz




8



### Ukraynalı deputat: “Rəsmi Bakı və Ankara Qarabağın siyasi və iqtisadi inkişafı ilə bağlı qətiyyət nümayiş etdirir”

Azərbaycan və Türkiyə prezidentlərinin Füzuli Beynəlxalq Hava Limanının açılışında və Horadiz-Cəbrayıl-Zəngilan-Ağbənd avtomobil yolunun təməlinin qoyulmasında iştirakından danışanda, ilk növbədə, bunun böyük rəmzi məna daşıdığını demək olar.

## Zəngəzurdan İstanbula Turan yolu - Azərbaycanın ərazisi genişlənə bilər







## “5-ci kolon”na verilən “fas” komandası

13



## Sergey Markov: Rusiya Ermənistana təzyiq göstərir, onu Azərbaycanla sülhə sövq edir

10

TƏHLİL

***Dini bir, dili bir, milli mənsubiyyəti, adət-ənənələri bir və tarixən çox böyük bağları olan iki qardaş ölkənin, Türkiyə və Azərbaycanın getdikcə daha da yaxın olduğunu, strateji müttəfiqliyini bütün dünya müşahidə edir, heç şübhəsiz ki, bu müşahidələr də müvafiq nəticələrin hasil edilməsi üçün yetərlidir. "Bir millət iki dövlət" fəlsəfəsinə sadiqlik əlbəttə ki, diqqətdən yayınan deyil, hər zaman iki qardaş ölkənin bir yerdə olması öz növbəsində bütün dünyanın diqqət mərkəzindədir və bundan öz hesabını götürən qüvvələrin, güclərin Türkiyə və Azərbaycan rəhbərlərinin görüşlərini, bəyanatlarını diqqətlə izləməsi anlaşılandır, çünki bu görüşlər zamanı ciddi mesajlar verilir.***




# Kilidlərin açarı iki qardaş ölkədədir!

Hər dəfə olduğu kimi, bu dəfə də Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın Azərbaycana səfərinin zəngin proqramı var idi və baxmayaraq ki, bu səfər qısamüddətli oldu, səfər çərçivəsində həmin zəngin proqram tam şəkildə reallaşdırıldı. Əvvəla, qardaş ölkənin rəhbərinin səfərinin zənginliyi onun siyasi əhəmiyyətində idi və bunun öhdəsindən də məharətlə gəlindi. Çünki, görüş zamanı çox mühüm məqamlar ön plana çəkildi, diqqətə çatdırıldı, vurğulandı. Digər tərəfdən, səfərin məqsədi Bakı-Ankara strateji mövqelərinin möhkəmləndirilməsi ilə bağlı idi ki, buna da tam şəkildə nail olundu desək yanılmarıq və hər dəfə bu mövqelərin daha da möhkəmləndirilməsinin təkcə biz yox, artıq hamı yaxşıca şahidi olur. Bu səfərin ən böyük mesajı Bakı ilə Ankaranın bundan sonra daha yaxın olacağı və bölgəyə, onun təhlükəsizliyinə birgə nəzarət ediləcəyi barədə oldu. Açarların təqdim olunması da elə rəmzi mənada bunu əks etdirirdi.

Qardaş ölkənin lideri Füzuli Hava Limanına təyyarə ilə eniş etdi, bunu gerçəkləşdirdi ki, bu da özündə böyük mənaları ehtiva edir. Əvvəla, hamıdan əvvəl Türkiyə üçün bu hava limanının açıq olduğu bəyan edilir. İkincisi də, bu, hava xəttindən, hava limanından, ümumilikdə bütün yollardan birgə istifadə olunacağı anlamı daşıyır. Bu, həm də azad olunmuş ərazilərdə strateji əhəmiyyətə malik komunikasiya xətlərinin, komunikasiya strukturunun mövcudluğuna hər iki ölkənin maraqlı olduğunu göstərir.

Hava limanının açılışında Azərbaycan Prezidenti İlham Əliyevə və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğana simvolik olaraq açarların təqdim edilməsinin isə tamamilə geniş mənası var və düçünürük ki, bunun mənasını hamıdan yaxşı Ermənistan tərəfi, bu işğalçı ölkəni dəstəkləyən, eləcə də havadarlıq edən qüvvələr anladılar və artıq nəticə belə çıxardıqları şübhə doğurmur. Çoxları artıq anlamaq, dərk etmək, nəticə çıxarmaq məcburiyyətində qaldılar ki, Qarabağın, ümumiyyətlə bölgənin açarı indi bu iki qardaş ölkənin əlindədir və kimsənin bura müdaxilə etməsi bundan sonra mümkün deyil.

Ümumiyyətlə, açarın kimdə olmasının böyük əhəmiyyət daşıdığı hər kəsə bəllidir. Bəllidir ki, açar ya mənsubiyyət bildirir, ya da maneəsiz gediş-gəliş imkanları deməkdir. Ən azından açarın nəyi simvolizə etdiyi heç kim üçün qaranlıq deyil. Görünür, elə dövlət başçılarına simvolik olaraq açar təqdim edilməsi də təsadüfi deyildi və bu geniş mənada bir mesajdır. Elə bir mesajdır ki, artıq yaddaşlara həkk olundu. Bildirildi ki, bu ərazilərin sahibi var və bundan sonra nə ötən əsrin sonlarında buraya soxulan işğalçılar bir də işğaldan azad edilən həmin ərazilərə soxula bilməyəcəklər, nə də onları dəstəkləyən, yeri gələndə köməklik göstərənlər, erməni havadarları vəziyyətə, həmin ərazilərdə gedən proseslərə müdaxilə etmək üçün burunlarını soxa bilməyəcəklər. Mesaj verildi ki, bundan sonra Qarabağ heç də hamı üçün açıq qapı deyil, onun da açarı yalnız iki qardaş ölkənin əlindədir.

Təbii ki, Füzuli Hava Limanında açarların iki qardaş ölkə rəhbərinə təqdim edilməsinin mənaları hələ bundan sonra çox təhlil ediləcək. Bu barədə hələ çox şərhlər ediləcəyi də təkzib edilə bilməz. Çünki, bu təqdimetmə məsələsi heç də sıradan bir addım deyildi və ola da bilməzdi. Şübhəsiz ki, bu, təkcə Ermənistanın, yaxud burada maraqları olanların deyil, bütün dünyanın nəzərinə bir sıra məqamların çatdırılması və xatırladılması idi. Əks halda, simvolik olaraq açar deyil, başqa nə isə ola bilərdi və bəllidir ki, məhz açarların iki qardaş ölkə liderlərinə təqdimatı əbəs yerə deyildi, hansıki bundan hər kəs öz hesabını artıq götürdü, nəticəsini çıxardı. Nəticələr, əlbəttə müxtəlif ola bilər, amma ən azından gəlinəcək eyni nəticə birmənalı olaraq ondan ibarətdir ki, regional məsələlərdə, məhz bu bölgədə bu zamana qədər mübahisə doğuran, eləcə də bundan sonra mübahisə doğura biləcək bütün kilidlərin açarı bundan sonra iki qardaş ölkənin, Azərbaycan və Türkiyənin əlindədir.

İki qardaş ölkə rəhbərinin iştirakı ilə Zəngəzur dəhlizinin təməli qoyuldu və bu təməlqoyma mərasimində həm Türkiyə, həm də Azərbaycan Prezidentinin birgə, bir yerdə olması özü də bölgədəki bütün kilidlərinin açarının bundan sonra məhz bizdə olmasını təsdiqləyir.

***Azərbaycan-Türkiyə strateji müttəfiqlik əlaqələri hələ bundan sonra daha sürətlə inkişaf edəcək, məntiqi nəticə olaraq daha da dərinləşəcək, hansı ki, indi bütün dünyaya verilən mesajlardan biri, bəlkə də elə birincisi budur...***

Xatırladaq ki, cənab Prezident İlham Əliyyev dəmir yolu ilə yanaşı, avtomobil yolunun da Zəngəzur dəhlizinin tərkib hissəsi olması şərtini irəli sürmüşdü və indi bu şərt bir zaman bizimlə hədə dili ilə danışanlar tərəfindən, istəsələr də, istəməsələr də qəbul edilir. Doğrudur, bu zamana qədər Ermənistan tərəfi bu məsələyə qarşı çıxan bəyənatlar səsləndirir, həmin şərtlə guya razılaşmayacağını gündəmə daşıyırdı. İndi bu yolun təməlinin qoyulması onu göstərir ki, əvvəla, Ermənistan rəhbərliyi çarəsizliyini gizlətmək üçün daxili auditoriyaya hesablanan fikilər səsləndirirdisə də indi bunu da edə bilmir, digər tərəfdən, ölkə rəhbərimizin şərtlərini qəbul etməkdən başqa bu işğalçı ölkənin hansısa çarəsi belə yoxdur. Bəli, təməl qoyuldu, özü də hər iki qardaş ölkə liderinin iştirakı ilə və bu da özü-özlüyündə simvolik olan açarların hər iki dövlətin başçısına təqdim olunduğunun heç də təsadüfi olmadığını, rəmzi məna daşıdığını bir daha təsdiqlədi. Təsdiqlədi ki, bölgədə yolların da salınmasının, infrastrukturun da bərpa edilməsinin, ümumilikdə, bütün layihələrin də reallaşmasının ixtiyarı, yəni açarı məhz qardaş ölkə ilə bərabər bizim öz əlimizdədir.

Sözsüz ki, hər iki ölkə rəhbərinin verdiyi bəyanatlar təsadüfi fikirlər deyildi və hər biri özündə bir sıra məqamları əks etdirir. Əvvəla, bu, Bakı-Ankara əməkdaşlığının regional məsələlərdə, hətta dünya miqyasında belə önəmli amilə çevrilməsi deməkdir. Çünki, 30 ilə yaxın müddətdə bütün dünyanın beynəlxalq təşkilatlarının, BMT-nin belə çözə bilmədiyi kələf, işğal problemi məhz bu əməkdaşlıq sayəsində öz həllini tapdı və Türkiyənin mənəvi, siyasi dəstəyi ilə Azərbaycan ermənilərin işğal altında saxladıqları torpaqları öz gücünə işğaldan azad etdi, geri qaytardı. İndi də bütün dünya şahid olur ki, Azərbaycan və Türkiyə Zəngəzur dəhlizinin gerçəkləşməsi üçün əməli addımlar atır. Bu isə ondan xəbər verir ki, Bakı-Ankara əməkdaşlığı Zəngəzur dəhlizinin reallaşması üçün bütün imkan və vasitələrdən istifadə etmək əzmində, iqtidarındadır.

Hadisələrin ardıcıllığı təsdiq edir ki, Azərbaycan-Türkiyə strateji müttəfiqlik əlaqələri hələ bundan sonra daha sürətlə inkişaf edəcək, məntiqi nəticə olaraq daha da dərinləşəcək, hansıki, indi bütün dünyaya verilən mesajlardan biri, bəlkə də elə birincisi budur. Heç şübhəsiz ki, bu müttəfiqlik sayəsində regionda reallaşdırılacaq bütün layihələr region ölkələri üçün iqtisadi, ticari fürsətlər yaradacaq, əlbəttə ki, bu fürsətləri İran və Gürcüstanın timsalında qonşu ölkələr düzgün dəyərləndirsələr. Bakı ilə son zamanlar yaratdığı gərginlikdən sonra əgər Tehran Zəngəzur dəhlizinə qarşı çıxırsa, bu dəhlizə qoşulub-qoşulmayacağı barədə Gürcüstan tərəddüd edirsə, bütün bunların fonunda Azərbaycan və Türkiyə Prezidentləri birlikdə bu dəhlizin təməlini qoyursa, deməli, yenə də məhz simvolik olaraq açarların bu iki qardaş ölkəyə məxsus olması öz təsdiqini tapır. Bu həm də ondan xəbər verir ki, bu işlərə qoşulma, ya da bu işlərdə iştirak birinci növbədə ərazi bütövlüyünün tanınmasından keçir. ”Əgər Ermənistan Azərbaycan ilə bağlı səmimi iradə ortaya qoyarsa, Türkiyənin Ermənistan ilə əlaqələrinin normallaşması üçün də bir maneə qalmayacaq”, deyən cənab Ərdoğan bununla bəyan edir ki, Ermənistanın mövqeyi onun taleyini müəyyən edəcək və öz taleyinə biganə qalmayacağı təqdirdə Ermənistan revanşist ideyalar yaymağa çalışanlara aldanmayaraq, Azərbaycanın ərazi bütövlüyünü tanımalıdır.

Bəli, bölgədə yaradılan reallıqlar, məhz Azərbaycanın və Türkiyənin strateji əməkdaşlığı sayəsində ölkəmizin yaratdığı yeni reallıqlar bəzi qüvvələri narahat edir və bu açıq-aydın şəkildə görünür. Buna baxmayaraq, bölgədəki quruculuq-abadlıq işləri, bu işlərdə Azərbaycanın uğurları artıq qarşısıalınmaz proseslərdir. Kimisə narahat etməsindən, kiminsə xoşu gəlib-gəlməməsindən asılı olmayaraq Bakı-Ankara əməkdaşlığı öz sözünü deyir və Türkiyə ilə Azərbaycan öz maraqlarından çıxış edir, bölgənin açarının da məhz bu iki qardaş ölkəyə məxsus olması burada da öz təsdiqini tapır ki, simvolik olaraq açarların təqdim olunması buna işarədir.

***İnam Hacıyev***

# Dünya mətbuatı Azərbaycan və Türkiyə prezidentlərinin Qarabağda yazdıqları yeni tarixdən yazır!




***Moldovanın nüfuzlu "Tribuna" xəbər portalında AZƏRTAC-ın Ukrayna, Belarus və Moldova üzrə xüsusi müxbiri Emil Hüseynlinin Azərbaycan və Türkiyə prezidentləri İlham Əliyev və Rəcəb Tayyib Ərdoğanın Füzuli Beynəlxalq Hava Limanının rəsmi açılış və Zəngəzur Dəhlizinin təməlqoyma mərasimlərində iştirakına dair məqaləsi dərc olunub.***

”Azərbaycan və Türkiyə prezidentləri Qarabağda yeni tarix yazdılar” sərlövhəli məqalədə qeyd olunur ki, Azərbaycan regionda yaranmış yeni geosiyasi vəziyyəti inamla qoruyur və Zəngəzur dəhlizinin açılmasına doğru böyük əzmlə irəliləyir. Azərbaycan Füzuli Beynəlxalq Hava Limanını istifadəyə verməklə bu torpaqların əsl sahibi olduğunu bir daha bütün dünyaya nümayiş etdirdi. Azərbaycanın regionun kompleks inkişafı üçün böyük imkanları var və o, qarşıya qoyduğu bütün məqsədlərə ardıcıl şəkildə nail olur.









აზერბაიჯანისა და თურქეთის პრეზიდენტებმა „ზანგეზურის დერეფნის“ გზის მშენებლობას ჩაუყარეს საფუძველი

Müəllif qeyd edir ki, digər vacib tədbir gələcəkdə Zəngəzur dəhlizi vasitəsilə Azərbaycanın şərq rayonlarını Naxçıvan və Türkiyə ilə birləşdirəcək nəqliyyat marşrutunun təməlinin qoyulmasıdır. Bəzi xarici qüvvələrin Qarabağdakı iri layihələri əngəlləmək cəhdlərinə baxmayaraq, Azərbaycan və Türkiyə birgə uğurlarını davam etdirir. Bu uğurun daha bir nümunəsi Azərbaycan Prezidenti İlham Əliyevin və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın müvafiq mərasimlərdə birgə iştirak etməsidir.




Məqalədə Azərbaycan və Türkiyə prezidentlərinin mətbuata bəyanatlarında səsləndirdikləri fikirlərə də geniş yer verilib.

Yaponiyanın ”ajmedia.jp” saytı Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan tərəfindən Zəngəzur dəhlizinin təməlinin qoyulması barədə xəbər yayıb. AZƏRTAC xəbər verir ki, yapon və ingilis dillərində yayımlanan xəbərdə Azərbaycan və Türkiyə prezidentlərinin əvvəlcə Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolunun tikintisi ilə tanış olduqları bildirilib. Dövlət başçılarına görüləcək işlər barədə ətraflı məlumat verildiyi diqqətə çatdırılıb. Yolun 2023-cü ildə tam başa satacağı qeyd edilib.




Sonra Azərbaycan və Türkiyə prezidentlərinin Zəngəzur dəhlizinin - Horadiz-Cəbrayıl-Zəngilan-Ağbənd Horadiz-Cəbrayıl-Zəngilan-Ağbənd avtomobil yolunun təməli qoyduqları vurğulanıb.

Türkiyənin Prezidenti Rəcəb Tayyib Ərdoğanın oktyabrın 26-da Azərbaycana səfəri, Prezident İlham Əliyevlə bilikdə Füzuli Beynəlxalq Hava Limanının açılışında iştirakı, iki liderin görüşləri və Şərqi Zəngəzurdan dünyaya verdikləri mesajlar, ali qonağa göstərilən yüksək diqqət və qonaqpərvərlik qardaş ölkənin aparıcı kütləvi informasiya vasitələri tərəfindən baş xəbər olaraq qalmaqdadır. Anadolu Agentliyi, ”TRT Haber”, ”Haber Global”, ”A Haber” və digər telekanallar səfərin ən mühüm hissələrini canlı yayım olaraq təqdim ediblər. Səfərin tarixi əhəmiyyəti ilə bağlı çeşidli materiallar yayan Anadolu Agentliyi, eyni zamanda, Prezident İlham Əliyevə ”Qarabağ Zəfəri” nəşrinin təqdim olunması barədə də xüsusi xəbər hazırlayıb.




Aparıcı telekanallar səfərin strateji əhəmiyyəti barədə görkəmli ekspertlərin iştirakı ilə efir müzakirələri aparırlar. Mütəxəssislərin yekdil rəyi budur ki, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə möhtəşəm hərbi zəfər qazanan Azərbaycan Ordusunun yaratdığı yeni geosiyasi vəziyyətin inkişaf dinamikası qarşısıalınmaz prosesdir.

”Hürriyyət” qəzeti səfərlə bağlı materialları ”Daimi sülh üçün ən əlverişli zəmin”, ”Prezident Ərdoğan Ermənistanla münasibətləri normallaşdırmaq şərtini açıqladı” kimi sərlövhələrlə oxuculara çatdırır. ”Sabah” eyni mövzudakı materialı ”Əliyevdən başkan Ərdoğana övgü dolu sözlər” sərlövhəsi ilə təqdim edib.

*Ardı Səh. 4*

# Dünya mətbuatı Azərbaycan və Türkiyə prezidentlərinin Qarabağda yazdıqları yeni tarixdən yazır!




Əvvəli-Səh-3

Füzuli Beynəlxalq Hava Limanının bölgə üçün əhəmiyyətini ön plana çıxaran "Türkiyə" qəzeti "Qarabağın dünyaya açılan qapısı Füzulu Beynəlxalq Hava Limanı xidmətə başladı. Azərbaycanda tarixi gün" sərlövhəsi ilə baş xəbər olaraq oxuculara çatdırıb. Səfər barədə ən mühüm məqamlar "Yeni Şəfəq" qəzetində də bənzər sərlövhəli yazılarla baş xəbərdə yer alıb.

"Yeni Akit" qəzeti də səfər çərçivəsində Zəngəzur dəhlizinin bir hissəsi olacaq avtomobil yolunun təməlinin qoyulduğuna diqqəti cəlb edərək, "Qardaşlıq koridoruna ilk təməl" başlığından istifadə edib. Qəzetlər, eyni zamanda, Prezident Rəcəb Tayyib Ərdoğanın bəzi ölkələrin Türkiyənin daxili işlərinə müdaxilə cəhdlərinə qarşı qətiyyətli mövqe sərgiləməsinə Azərbaycanın dövlət başçısının verdiyi dəstək barədə fikirlərinə də geniş yer ayırıblar.

"Akşam" qəzeti "Əliyevdən Ərdoğana övgü" başlığı ilə dövlətimizin başçısının Türkiyə liderinin bütün türk dünyası üçün mühüm amil olduğuna dair fikirlərini ön plana çıxarıb. "Milliyyət", "Yeni Çağ", "Posta" və digər qəzetlər də mövzuya geniş yer ayırıblar.

Nüfuzlu "Əl Ərəbiyə" telekanalı Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın Azərbaycana rəsmi səfəri zamanı səsləndirdiyi




bəyanatla bağlı reportaj yayımlayıb.

Reportajda Rəcəb Tayyib Ərdoğanın rəsmi Yerevanın Ankara ilə əlaqələr qurmasının şərtləri ilə bağlı fikirləri yer alıb. Qeyd olunub ki, Türkiyənin dövlət başçısı bu münasibətlərin qurulmasının başlıca şərtinin Ermənistanın Azərbaycanla problemlərini həll etməkdən asılı olduğunu vurğulayıb.

Reportajda Rəcəb Tayyib Ərdoğanın bəyanatından sitat yer alıb: "Bu məsələlərdə Ermənistan Azərbaycan ilə problemlərini həll etmək istiqamətində səmimi bir iradə göstərməlidir. Əgər Azərbaycan ilə bağlı səmimi iradə ortaya qoyarsa, Türkiyənin Ermənistan ilə əlaqələrinin də normallaşması üçün heç bir maneə qalmayacaq. Bütün bölgə üçün birlikdə qurulacaq firavan gələcəyi kiçik hesablara və daxili siyasətə qurban vermək vaxt itkisi mənasına gələcək".

Həmçinin qeyd olunub ki, Türkiyə Prezidenti Azərbaycanın Füzuli şəhərində yeni inşa edilmiş hava limanının açılışında iştirak edib.

Gürcüstanın aparıcı televiziya və radio kanalları, informasiya portalları Füzuli Beynəlxalq Hava Limanının açılış mərasimindən materiallar yayıblar.

Belə ki, 1tv.ge televiziyası, AGFM radio-




su, 24news.ge, interpress.ge, aktual.ge informasiya portallarında Azərbaycan Prezidenti İlham Əliyevin və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın Füzuli Beynəlxalq Hava Limanının açılışı mərasimdəki iştirakı barədə silsilə materiallar verilib.

Oxuculara Azərbaycan və gürcü dillərində təqdim olunan materiallarda Azərbaycan və Türkiyə prezidentlərinə Füzuli Beynəlxalq Hava Limanının rəmzi açarlarının təqdim olunması barədə məlumatlar yer alır.

Bundan başqa, Azərbaycan və Türkiyə prezidentlərinin Horadiz-Cəbrayıl-Zəngilan-Ağbənd avtomobil yolunun (Zəngəzur dəhlizi) təməlqoyma mərasimindəki iştirakları barədə materiallar da yerləşdirilib.

Qazaxıstanın "Kazinform" informasiya agentliyi Füzuli Beynəlxalq Hava Limanının açılış mərasimini işıqlandırıb. Agentlik yazır ki, Füzuli Beynəlxalq Hava Limanının açılışında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan iştirak ediblər.

Xəbərdə qeyd edilib ki, Azərbaycan və




Türkiyə prezidentləri hava limanının açılışını bildirən lenti kəsiblər. Prezidentlərə Füzuli Beynəlxalq Aeroportunun rəmzi açarları təqdim olunub və dövlət başçıları hava limanında yaradılan şəraitlə tanış olublar.






# Bir millət, iki dövlətin qardaşlıq və birlik səfəri

**Prezident İlham Əliyev: "Türkiyə və Azərbaycan iki qardaş ölkə kimi hər zaman bir-birinin yanındadır"**

”Bu gün Füzuli Beynəlxalq Hava limanının açılışında birlikdə iştirakımız bir daha bizim birliyimizi göstərir, gücümüzü göstərir. Bu, onu göstərir ki, Türkiyə və Azərbaycan iki qardaş ölkə kimi hər zaman bir-birinin yanındadır. Füzuli Beynəlxalq Hava Limanının inşası cəmi səkkiz ay davam etdi. Səkkiz ay ərzində beynəlxalq hava limanı inşa edildi və bu hava limanının inşasında Azərbaycan və Türkiyə şirkətləri iştirak etmişlər. Yəni, bu, bizim birgə uğurumuzdur”. Bu fikirləri Azərbaycan Prezidenti İlham Əliyev oktyabrın 26-da Zəngilanın Ağalı kəndində mətbuata bəyanatında bildirib. Bir millət, iki dövlətin liderləri - Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın işğaldan azad olunmuş Qarabağ torpaqında növbəti görüşü birliyimizin, gücümüzün göstəricisidir. Bu, həm də onu təsdiq edir ki, hər iki dövlət liderlərinin sözləri imzaları qədər güclüdür.





## Prezident İlham Əliyev: “Əminəm ki, bundan sonra da Türkiyə və Azərbaycan iki qardaş ölkə kimi bir yerdə irəli gedəcək”

Azərbaycan Prezidenti İlham Əliyev Zəngilanın Ağalı kəndində mətbuata bəyanatında bildirib ki, Türkiyə-Azərbacan həmişə hər işdə bir yerdə olacaq: ”Bu gün əziz qardaşım Rəcəb Tayyib Ərdoğanla birlikdə böyük avtomobil yolunun təməlini qoyduq. Bu avtomobil yolu da Zəngəzur koridorunun bir parçasıdır. Bu avtomobil yolunun və dəmir yolunun çəkilişi nəticəsində biz istədiyimizə nail olacağıq”. Azərbaycanın azad edilmiş torpaqlarında fəaliyyət göstərən bir çox Türkiyə şirkətlərinə təşəkkürünü bildirən dövlətimizin başçısı deyib: ”Onların yorulmaz səyləri nəticəsində bu gün bax bu bölgədə yollar çəkilir, dəmir yolları çəkilir, tunellər çəkilir, infrastruktur layihələri gerçəkləşir. Bu, bir daha bizim birliyimizin, bizim qardaşlığımızın təcəssümüdür. Tam əminəm ki, bundan sonra da Türkiyə və Azərbaycan iki qardaş ölkə kimi bir yerdə irəli gedəcək, xalqlarımız bir-birinə daha da yaxın olacaq. Dövlətlərimiz bundan sonra da uğurlu işbirliyi edəcək və beləliklə, Türkiyə-Azərbaycan gücü, birgə gücü daha da təsirli olacaq”.

## Rəcəb Tayyib Ərdoğan: “Qardaş Azərbaycana bütün imkanlarımızla dəstək olmaqda davam edəcəyik”

El arasında gözəl bir məsəl var: ”Yaxşı dost dar gündə sınanar!”. Azərbaycan Türkiyə arasındakı qədim dostluq-qardaşlıq sınıqlardın çıxmış əbədi və sarsılmaz birliyidir. Həyatımızın hər sahəsində izi görünən, nəfəsi duyulan Ümummilli Liderimiz Heydər




Əliyevin illər öncə müdrikcəsinə söylədiyi - ”Azərbaycan-Türkiyə bir millət, iki dövlətdir” və Böyük Öndər Mustafa Kamal Atatürkün ”Azərbaycanın sevinci bizim sevincimiz, kədəri bizim kədərimizdir”, - kəlamları yaşadığımız günlərdə bir daha tarixiləşdi, toplumun bütün kəsimləri tərəfindən bəyənilən, uşaqdan-böyüyə hər kəsin dilinin əzbəri olan, istər sosial şəbəkələrdə, istərsə də cəmiyyət həyatının hər hansı bir sahəsində ən çox işlədilən ifadəyə çevrildi. Və bu gün Türkiyə-Azərbaycan dostluğu, qardaşlığı ən yüksək zirvədədir.

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan oktyabrın 26-da Zəngilanın Ağalı kəndində mətbuata bəyanatında bildirib ki, Azərbaycan bütün dünyaya örnək olacaq bir model ilə bu bölgəni inkişaf etdirmək üçün fəaliyyətini davam etdirir. Təməli qoyulan layihələrin, tunellərin, avtomobil yollarının bölgədə görülən işlərin miqyasını göstərmək baxımından çox önəmli olduğunu qeyd edən Türkiyə Prezidenti deyib: ”Bu fəaliyyətə liderlik edən İlham qardaşımı və əməyi keçən hər kəsi ürəkdən təbrik edirəm. Podratçı firmaları təbrik edirəm. Podratçı firmaların işi ən yüksək təqdirə layiqdir. Türkiyə olaraq, biz də bu fəaliyyətlərdə üzərimizə düşəni etməyə, qardaş Azərbaycana bütün imkanlarımızla dəstək olmaqda davam edəcəyik”.

## Rəcəb Tayyib Ərdoğan: ”İşğaldan azad edilən bölgələrin qısa müddətdə sürətlə inkişaf etdirilməsi hər siyasətçinin işi deyil”

”Bu gün etdiyimiz səfər zamanı Azərbaycandakı işğaldan azad edilən bölgələrin qısa müddətdə necə dirçəldiyini, necə sürətlə inkişaf etdiyini görürük. Bu hər igidin, hər siyasətçinin işi deyil”,-deyən Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan onu da vurğulayıb ki, bu qədər qısa müddətdə bu investisiyaları yatırmaq və bu işləri həyata keçirmək buralardan ayrılmağa məcbur qalmış azərbaycanlı qardaşlarımıza bir müjdədir: ”İnanıram ki, azərbaycanlı qardaşlarım ən qısa müddətdə son dərəcə gözəl bir şəkildə inşa edilən, bərpa olunan bu yerlərə qayıtmaq imkanı əldə edəcəklər”.

Türkiyə Prezidenti həmçinin bildirib ki, Ermənistan Azərbaycanla problemlərini həll etmək istiqamətində səmimi bir iradə göstərməlidir: ”Bölgədəki inkişafdan İran, Gürcüstan, Ermənistan da daxil olmaqla, Azərbaycanın bütün qonşuları istifadə edəcək. Bu prosesdə sərhədlərin müəyyənləşdirilməsi və qarşılıqlı olaraq tanınması zəruridir. Mehriban qonşuluq münasibətlərinin əsasını da bu anlayış təşkil etməkdədir”. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan vurğulayıb ki, Türkiyənin Ermənistanla əlaqələrinin də normallaşmasının qarşısında bir maneə qalmayacaq: ”Dünyanın bu gözəl bölgəsində sülh içində yaşanacaq parlaq bir gələcək əlbəttə ki, mümkündür. Davamlı sülhün yaradılması istiqamətində atılacaq hər müsbət addımın qarşılığını Türkiyənin də eyni konstruktiv anlayışla verəcəyini bir daha xüsusi vurğulayıram”.

## Azərbaycan Prezidenti: “Bizim birgə addımlarımız tarixdə əbədi qalacaq”

”Bu gün Zəngilan rayonunda birinci özəl yatırım layihəsinin də təməlini qoyduq. Bu yatırım layihəsi də Türkiyə-Azərbaycan birgə layihəsidir”, - deyən dövlətimizin başçısı qeyd edib ki, bu, bütün işlərdə, o cümlədən işğaldan azad edilmiş torpaqlarda gedən quruculuq, bərpa işlərində də bizim çiyin-çiyinə bir yerdə irəlilədiyimizi bir daha göstərir. Bu gün Zəngilanın Ağalı kəndindəki bu rəsmi mərasim tarixdə qalacaq. Bizim birgə addımlarımız tarixdə əbədi qalacaq”.

Dövlət başçısı onu da qəti şəkildə bildirib ki, bu birlik əbədi qalacaq: ”Bu tarixi biz birlikdə yazırıq, necə ki, bütün dövr, müharibə dövrü ərzində birlikdə idik, bu gün də bir yerdəyik”, - deyə Azərbaycan Prezidenti vurğulayıb. Azərbaycan Prezidenti onu da bildirib ki, Türkiyə və Azərbaycan iki qardaş ölkə kimi hər zaman bir-birinin yanındadır: ”Bu gün Füzuli Beynəlxalq Hava limanının açılışında birlikdə iştirakımız bir daha bizim birliyimizi göstərir, gücümüzü göstərir”. ”Bu, onu göstərir ki, Türkiyə və Azərbaycan iki qardaş ölkə kimi hər zaman bir-birinin yanındadır. Füzuli Beynəlxalq Hava Limanının inşası cəmi səkkiz ay davam etdi. Səkkiz ay ərzində beynəlxalq hava limanı inşa edildi və bu hava limanının inşasında Azərbaycan və Türkiyə şirkətləri iştirak etmişlər. Yəni, bu, bizim birgə uğurumuzdur”, - deyə dövlətimizin başçısı vurğulayıb.

## Türkiyə Prezidenti: “Bu bölgələri sürətlə inkişaf etdirmək hər siyasətçinin işi deyil”

”İşğaldan azad edilən bu gözəl bölgədə dörd aylıq fasilədən sonra, Füzulidən sonra Zəngilanda olmaqdan böyük bir qürur duyuram”. Bunu Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Azərbaycan Prezidenti İlham Əliyevlə Zəngilanda keçirilən birgə mətbuat konfransında çıxışı zamanı deyib. ”Dəyərli qardaşım, Prezident İlham Əliyevə xoş dəvət üçün bir daha şəxsim, heyətim, millətim adından təşəkkür edirəm. Qısa zaman içərisində Azərbaycanda işğaldan azad edilən bu bölgələri necə sürətlə inkişaf etdirmək hər igidin, siyasətçinin bacara biləcəyi iş deyil”, - deyə Türkiyə Prezidenti vurğulayıb. Bir sözlə, iki güclü ölkənin liderləri Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan və Azərbaycan Prezidenti İlham Əliyevin dəmir siyasəti daha da möhkəmlənəcək, Ulu Öndər Heydər Əliyevin ”Bir millət, iki dövlət” kəlamı sadəcə olaraq kəlam deyil, bu, gerçəkdir. Artıq bu reallıq GÜCLƏNƏN BİR AZƏRBAYCAN, GÜCLƏNƏN BİR TÜRKİYƏ VARDIR! Qarabağ Azərbaycandır! Azərbaycan-Türkiyə ”Bir millət, iki dövlətdir!”

*RƏFİQƏ KAMALQIZI*

**_Televiziya verilişləri və seriallar insanın psixi sağlamlığına təsir edir. Söhbət əsasən mənfi təsirdən gedir. Məşhur türk mütəxəssis bir çox serialın real həyatla əlaqəsi olmadığını, dəbdəbəli həyatların yaşandığı seriallarda pulun necə qazanıldığının açıqlanmadığını, şiddətin davamlı olaraq vurğulandığını deyir. Xüsusilə şəxsiyyət quruluşu inkişaf edən uşaq və gənclərin daha çox diqqət mərkəzində olduğu vurğulanıb. İnsanlar bu kimi seriallardan mənfi təsirlənir._**




ARAŞDIRMA

# Seriallar insan həyatına necə təsir edir?







"Serial kimi həyatlar var. Lakin bu həyatı kimlər yaşaya bilər?". Mütəxəssis real həyatdan seçilən örnəklərin günümüzdə olduğunu vurğulasa da, seriallardan seçilən obrazların bəzən reallıqlardan uzaq ola biləcəyini söyləyib.

Uşaqlar serialları örnək götürsələr, bu uşaq öz həyatına, geyindiyi geyimə, sürdüyü avtomobilə örnək kimi baxacaq. İnsanlar arasındakı münasibətlərə o gözlə baxacaq. Biz bilirik ki, seriallardakı bu həyat real həyat deyil. Serialların real olmadığına dair bir neçə misal, seriallardakı bütün iş və səlahiyyətlər dəbdəbə üzərində qurulub. İş nə vaxt görülür, pul haradan gəlir, mal necə alınır, ayın sonunda hesablamaları kim aparır? Heç uğursuz olurmu? Əlinin sevgilisi, filankəsin villası, filan maşını. Bu, insanın başında formalaşan formadır, bu, təxəyyüldür. İndi insan belə həyat yaşamaq istəyir, orda görüb, öz həqiqətinə baxır. Bu dəfə ağıl mənəvi aləmdə qarşıdurmaya girir. Seriallardakı kimi həyatlar da var, amma nə qədər insan yaşaya bilər? Seriallardakı şiddət nümunə axtaran gənclərə ciddi təsir edir. Bu, həll edilməli olan məsələdir.

Örnək olan və insanların evinə təqdim olunan seriallar mütləq real olmalıdır, real ailə həyatına, maarifləndirici seriallara uyğun olmalıdır. Real həyata uyğunlaşmayan seriallar insanın psixi sağlamlığına ciddi mənfi təsir göstərir. Bunlar travma yaradır və bu travmalar bir gün cəmiyyətdə gözlənilməz sürətlə partlayışa səbəb ola bilər. Bu həssas məsələdir. Serialın prodüserləri mütləq bu məsələləri düşünməli və peşəkar dəstək almalıdırlar. Serial heyəti ssenariləri yazarkən peşəkar dəstək axtarılmalıdır. Pedaqoqlardan, psixiatrlardan, psixoloqlardan və müvafiq qurumlardan dəstək almalıdır. Çünki fərdi baxış birtərəfli ola bilər. Ssenari müəllifləri korporativ ideyalar əldə etməyi bacarmalıdırlar.

Asılılıq insanın fiziki və psixi sağlamlığına mənfi təsir göstərən hər hansı bir maddədən və ya vəziyyətdən məhrum olmaq hissi yaradır. Fiziki asılılıqlardan başqa insanların gözdən qaçırdığı və ya qəbul etmədiyi psixoloji asılılıqlar da var. Psixoloji asılılıqlar arasında media asılılığının bir alt növü hesab edə biləcəyimiz serial asılılığı göstərilə bilər. Türk psixoloq Çisem Doğanlaroğlu serial aludəçiliyi ilə bağlı diqqət çəkən açıqlamalar verib.

### Asılılıq meyarları

Televiziya seriallarına baxılan saatlar gündəlik fəaliyyətə təsir edir

Televiziya seriallarına impulsiv baxmağa meyl

Məcburi izləmə davranışı

Asılılığı aradan qaldırmaq üçün hər hansı bir hərəkət etmək istəyinin olmaması, işdən çıxma, depressiya əlamətləri

Seriala baxmaq mümkün olmadıqda onu media asılılığının müxtəlif alt növləri əvəz edir (sosial şəbəkə saytları, rəqəmsal oyunlar)

Seriyaya baxış saatlarının davamlı artması

Televiziya seriallarından asılılığın nəticələri

Televiziya seriallarından asılılıq yaşından, təhsilindən, cinsindən asılı olmayaraq hər bir insanda müşahidə oluna bilən bir asılılıqdır.

Serialdakı personajlar və uydurma həyatlar mənfi modelləşdirməyə səbəb olur və insan real həyatdakı məsuliyyətlərindən uzaqlaşaraq serial personajları ilə eyniləşir. Serialdakı xarakterin xüsusiyyətləri davranışın istiqamətini müəyyən edir. Uşaqlarda və böyüklərdə müşahidə olunan aqressiv davranışlar seriallarla artan məyusluq hisslərinin ən böyük əksidir. Artan ünsiyyət problemləri, münaqişələr, depressiya, özünü qavrayışın pisləşməsi, məktəbə və ya işə kifayət qədər vaxt ayıra bilməmək bu asılılığın nəticələrinə misaldır.

### Asılılığın müalicəsi

Televiziya seriallarına aludəçiliyin dağıdıcı təsirlərindən xəbərdar olmaq və bu vəziyyətdən narahat olmaq, asılılığın müalicəsində ilk addımdır. Sonrakı mərhələlərdə seriala baxma saatlarının nəzarət altına alındığı və məhsuldar fəaliyyətlərin (kitab oxumaq, idman etmək, iş tapmaq, hobbi əldə etmək, dostlarla görüşmək) həyata keçirildiyi idrak quruluşu ilə müalicə edilə bilər.



SİA mövzu ilə bağlı araşdırma apararaq ekspert və psixoloqların bu barədə fikirlərini öyrənib.

Məsələ ilə bağlı **yazıçı-kulturoloq, analitik ekspert Aydın Xan Əbilov** fikirlərini bu cür ifadə edib: "Hər dövrün özünün texnologiyaları, estetik formaları və eyni zamanda, insanların həyat, zaman, zaman daşları və ümumiyyətlə onları düşündürən məsələlər haqqında hansısa formada tarixdə qalması üçün əks etdikləri müəyyən formatlar olur. Vaxtilə bu, Misirdə papirus kağızında, Qədim Midiyada və İranda gil lövhələrdə və yaxud buğa dərisində (məsələn, avesta buğa dərisində yazılıb), Ərəbistanda da yenə də gildə və digər kağız formasından istifadə etmək, Çində kağızdan, Qədim türklərdə qaya daşlarından, Azərbaycanın özündə Qobustana həkk olunmuş yazılardan ibarət bu formatları görürük. Müasir dövrün formatlarından biri olan televiziya vizual və virtual məhsullardır. İndi daha çox kütləyə təsir edən elektron kütləvi informasiya vasitələri sayılan radio, televiziya və daha sonra isə internet saytlarıdır. İnternet, video portallar və müəyyən filmləri nümayiş etdirən platformaları da bu siyahıya daxil edə bilərik. İnsanlar artıq kitablardan, əlyazmalardan, gil lövhələrdən hansısa bir hadisəni oxumaq, bu hadisə haqqında məlumatları kağızda yazıb əlyazma ilə bölüşmək istəmirlər, tənbəllik edirlər, daha çox vizual səsli və şəkil formada olan informasiya ilə tanış olmaq və onu yaymağa maraqlıdırlar və bu informasiya yayımında televiziyanın rolu çox böyükdür eyni zamanda nəinki televiziya verilişləri o cümlədən də televiziya seriallarının da rolu bu məsələdə əhəmiyyətlidir. Xüsusən də passiv əhali qrupları üçün hazırlanmış verilişlər, şou-biznes xarakterli verilişlər və televiziya serialları əlbəttə ki insanları tənbəlləşdirir, müxtəlif yollara salır, insanlar arasında konfliktlər, ailədaxili münaqişələr yaradır. Bu da ümumi ictimai durumu, psixoz vəziyyəti gərginləşdirən amillərdən biridir.

Tele-seriallara fikir verəndə xüsusilə də Azərbaycan və türk teleseriallarına fikir versəniz əgər onları müqayisə aparsaq Rusiya kanallarında göstərilən seriallar və yaxud indi dünyanın hər yerində baxılan Koreya, Amerika, Braziliya seriallarına baxanda müəyyən fərqli cəhətləri görə bilərik. Əgər, Rusiya kanallarında daha çox pafos, daha çox cəmiyyətin intellektual kəsiminə ünvanlanmış seriallar nümayiş olunursa, burada vətənpərvərlik, hərbi güc, tarix, imperiya ideologiyası hökm sürürsə, Türkiyə və Azərbaycan seriallarında daha çox məişət zəminində, insanların fikrini azdıran və ən çox sosial ailə məsələləri qabardılan seriallara rast gəlirik. Bir-iki tarixi serialları çıxmaq şərtilə Türkiyədə əsasən budur, Hindistan filmləri estetikasına uyğun göz yaşı içində, xəyanət, sevgi və dağılmış ailələr, bir-birinə atan insanların həyatından ibarət seriallar əlbəttə ki, heç də intellektual, estetik səviyyəsi yüksək olmayan əhali qrupuna ünvanlanır. Bu isə reklamçılar üçün bir növ tor, tələ şəklindədir. Reklamçılar daha çox insanları cəlb edir, "daha çox kütlə sizin verlişinizə, seriallara baxsın ki, mən də sizə reklam verim" şərtilə bu cür keçmişdə sabun köpüyü adlanan serialların yaranmasına səbəb olub. Bu da insanların birbaşa mütaliəyə, oxumağa, araşdırmağa, elmi işlərlə məşğul olmağa olan həvəsini öldürür. Xüsusən də orta nəsil ki, onların beyni daha yaxşı işləyir, analitik təfəkkürü daha yaxşıdır, çünki təcrübə, zaman və bilik, peşəkarlıq, oturub işləmək onlarda daha çoxdur, nəinki, gəzib sevgi aləmində yaşayan gənclərdə və o nəslin özünü məhv edib.

Xarici ölkələrdəki qadınlara və bizim evdar qadınlara baxın. Xarici ölkələrdəki kişilərə və bizim çayxanada nərd atan, evə qaçıb seriala baxan kişilərə və bunların səviyyəsinə və get-gedə bizim həmin o bəyənmədiyiniz xristian dünyasının kəşf etdiyi müxtəlif texnologiyaların əsirinə çevrilməyimizin əsas səbəbi də məhz budur. Tele-kanallar düşünmək üçün, düşündürmək üçün heç də normal seriallar göstərmirlər. Daha çox hər şey aladır, ancaq sevgi haqqında fikirləşin, xəyanətin necə pis olduğunu bilin bu tipli ssenarilərdən ibarət uzun-uzadı və insanın bircə dəfə verilən ömrünü məhv edən, zamanını xərcləyən hadisələrlə bağlı seriallar verməklə adamların bütün ömrünə qəsd etmiş olurlar. Əslində insanlar da bilmədən öz ömürlərini mənasız şeylərə həsr edirlər. Ona görə də yeni nəsil daha çox internet və sosial şəbəkələr, "TikTok" kimi qısa videogörüntülər və videoməlumatlar olan formatlı platformalara keçidlər və telekanallara deməli olar ki, Azərbaycanda və dünyanın çox ölkələrində gənclər artıq baxmırlar. Get-gedə fikirləşirəm ki, çox güman ki, teleseriallar formatını və estetik fəlsəfəsini dəyişməsələr, kitablar və kitabxanalar kimi kağız kitabları özündə cəmləyən kitabxanalar kimi tarixin arxivinə atılacaq, əvəzinə yeni-yeni texnologiyalar gələcək. Bununla da barışmaq lazımdır. Çünki, bizim özümüz də əlyazmadan və yaxud gil kitabələrdən kitab oxumurduq. Biz daha çox çap dəzgahlarının istehsal etdiyi kitablardan informasiyanı qəbul edirdik. Amma indi artıq bunları kameralar, televizor aparatları, texnologiyalar əvəzləyir və bununla da barışmaq lazımdır. Müsbət tərəfləri əlbəttə ki, çoxdur.

Ardı Səh. 7

# Seriallar insan həyatına necə təsir edir?





ARAŞDIRMA

Əvvəli-Səh-6

Tele-serialların bütün mənfi cəhətlərinə baxmayaraq, orada ülvi hisslər, məhəbbət, sevgi, humanist hisslər, sivilləşmə, ictimailəşmə, sosiallaşma, mərhəmət kimi hissləri təbliğ etmələri əslində cəmiyyətin özünü bir növ maarifləndirmə və humanistləndirmə baxımından maraqlı bir formatdır və hər halda Amerika döyüş və ölüm səhnələrindən ibarət serial və filmlərindənsə və yaxud qərbin seks industriyasının bizə təklif etdiyi erotik, pornoqrafik filmlərindənsə, hər halda sevgi və ülvi hisslərə həsr olunmuş serialların nümayiş etdirilməsi və bununla da insanın içində olan vəhşi hissləri bir qədər estetik tərəfə yönəltməsi daha gözəldir, daha maraqlıdır. Ona görə də biz bunu qəbul edirik, üstəlik də tele-seriallar kreativ biznesin böyük bir hissəsini təşkil edir və elə ölkələr var ki, Türkiyənin özündə, Braziliyada, Rusiyada indi orada milyonlarla pullar sərf olunur, filmlər çəkilir və o hətta milyardlarla xeyir gətirir.

Bunu internetin yeni nəsil biznesmenləri də tez anlayıblar, bir çox platformalar var ki, onlar seriallarıözləri çəkməyə başlayır, özləri serial istehsal edirlər. Söhbət Azərbaycan seriallarından gedir. Burada çoxlu sayda iş yerlərinin yaranması, yaradıcı insanların, bəstəkarların, ssenaristlərin, yazarların, rejissorların, operatorların, geyim rəssamlarının və ümumiyyətlə, bəstəkarlar kimi bir çox sahələrin, 

işıqçılar kimi bir çox kreativ sahələrin insanlarının yeni iş yerlərinin yaranması və Azərbaycanda kreativ biznesin bir sənaye kimi formalaşmasına xidmət edir və bu müsbət tərəfləridir. Amma yenə də deyirəm ki, bir çox cəhətləri mütləq nəzərə alıb araşdırmaq və onun yaxşı tərəflərini götürmək lazımdır".

**Psixoloq Dəniz Umarova:** "Günlük həyatımızda insanların öz asudə vaxtlarını dəyərləndirmə üsullarından biri də seriallardır. Stressli və yorucu iş günün sonrasında serialların izlənməsi insanların istirahətinə və günlərinin xoş dəyərləndirilməsinə istiqamətlənsə də, bəzi hallarda nəticə arzuedilən olmur. Belə ki, müasir dövrdə televiziya, eləcə də bir sıra onlayn platformalarda təqdim edilən seriallar faydadan çox zərər verir. Ailə-məişət, zorakılıq, qarşılıqsız sevgi, xəyanət və s. kimi mövzularda təqdim edilən bu cür seriallar insanların əlavə gərginlik yaşamalarına səbəb olur. Burada diqqət çəkən əsas məqamlardan biri izləyicilərin özlərini filmdəki obrazlar ilə nə dərəcədə eyniləşdirmələridir. Qeyd olunan mövzularda həyatı əks etdirən bir sıra məqamlar izləyicələrin öz uğursuz həyat təcrübələrini əks etdirə bilər. Bu zaman seriallar bir növ xarici qıcıqlandırıcı rolu oynayaraq şəxsin keçmiş xatirələrini canlandıra və onun yenidən mənfi emosiyalar keçirməsinə səbəb olar. Belə hallarda müşahidə edilən əsas davranışlardan biri izləyicilərin öz problemlərini həll etmək üçün seriallarda qeyd olunan yolu izləmələridir. Bu hal isə nəinki uğur gətirər, həttə bəzən ciddi konfliktlərin başlanğıcı olar. Çünki bu zaman insanlar psixoloji xarakter xüsusiyyətlərini və yaşadıqları təcrübələrin müxtəlifliyini unudurlar. Eyniləşdirmə ilə bağlı digər bir məqam isə serial qəhrəmanının izləyicinin arzuladığı həyata və ya görünüşə malik olmasıdır. Qeyd edilən halda şəxs serial qəhrəmanını özünə rol model olaraq götürür, onun kimi olmağa çalışır. Bəzi hallarda ətrafdakı şəxsləri də özlərinə uyğun şəkildə dəyişmək üçün əmək sərf edirlər. Şəxsi münasibətlərə nəzər yetirdikdə xanımların öz həyat yoldaşlarından olan gözləntilərində, serial obrazlarının nümunə olaraq göstərilməsində bu kimi halların şahidi oluruq.



Seriallar insanların günlük həyatına daxil olmaqla onları bir müddət real olmayan həyatı yaşamalarına və özlərini müxtəlif cür hiss etmələrinə səbəb olur. İnsanlar bir müddət bu hisslərin təsirində öz yaşamlarına davam etməli olurlar. Serialın davamını, pozitiv sonlanmasını isə səbirsizliklə gözləyirlər.

Serialların insana təsirindən danışan zaman yalnız mənfi istiqamət seçimi düzgün olmaz. Belə ki, serialların seçimi izləyəcilərin istəklərindən asılı olan bir haldır. Əgər izləyici serialın ona xoş təsirdən daha çox psixoloji zərərini hiss edirsə bu zaman ondan imtina edə və serial seçimini dəyişə bilər. Doğru və yaşa uyğun seçilmiş serial izləyicilərin müxtəlif mövzularda faydalı məlumatlar əldə etməsində, eləcə də dünya görüşünün artmasında pozitiv rol oynaya bilər.

Bu baxımdan qeyd olunan halların nəzərə alınması, asudə vaxtın doğru formada dəyərləndirilməsi izləyiclərin psixoloji rifahı üçün faydalı və tövsiyə olunandır.

Bunlara komediya filmlərini nümunə göstərmək olar. Gülüş insanlarda enerjini yüksətməklə onlarda stress səviyyəsinin azalmasına və özlərini daha gümrah hiss etmələrinə yardımcı olar. Əbəs yerə deməyiblər ki, gülüş ömürü uzadar".

**Psixoloq Zeynəb Eyyubova:** "Ümumiyyətlə, nəinki serial bizim həyatda gördüyümüz hər şey insanların həyatı, yaşayışı, işi, film, sosial şəbəkə fərqi yoxdur, hər bir şey insana fərqli təsir edə bilər. Bu təsir əslində müxtəlifdir. Yəni, bir insan bir hadisəyə baxıb ordan mənfiyə də, müsbətə də köklənə bilər. İndi müasir dövrdə xanımlarımız və ya bəylərimiz seriala baxıb, bəylərimiz tutaq ki, ailədaxili münasibətlərdə ikinci qadına meyllilik, xanımlarımız oradan qısqanclığı və ya ailədaxili boşanmaya meyllənməyi, tək yaşamağın daha prestijli olduğunu öyrənirsə, amma filmlərdən başqa şey də öyrənmək olar.

Məsələn, türk seriallarında övlad ana bətninə düşən gündən artıq onun otağı hazır olur, həyat şəraiti düzəlir. Yeganə seriallardan öyrənmədiyimiz budur. Bütün günü bir psixoloq olaraq deyirik ki, uşaq ata-ananın yanında, ata-ana ilə bir otaqda yata bilməz. Hətta birotaqlı evdirsə də belə onu bir pərdə ilə falan ayırmaq lazımdır. Deməli, bizim insanlar, cəmiyyətimiz öz istədiyi şeyləri öyrənir, öz istəmədiyi şeyləri isə seriallardan belə öyrənmirlər".

*Ayşən Vəli*

# VİRUS TƏHLÜKƏSİ:
## Məktəblər yenidən bağlanır?



"İlk növbədə qeyd edim ki, 29 sentyabrdan etibarən ali təhsil müəssisələrində tədrisin bərpa edilməsi təbii olaraq yoluxmaya öz təsirini göstərəcəkdi. Rəqəmlərə baxdıqda görürük ki, heç də ali təhsil müəssisələrində vəziyyət o qədər də təhlükəli deyil. Lakin təbii olaraq qabaqlayıcı tədbirlər görülməlidir". Bu sözləri SİA-ya açıqlamasında təhsil eksperti Kamran Əsədov deyib.

Onun sözlərinə görə, hal-hazırda ölkənin 51 ali təhsil müəssisəsində 187 min tələbə təhsil alır və bu günə qədər ali təhsil müəssisələrində yoluxma halı 700 civarındadır: "Yəni, bu böyük bir rəqəm deyil. Bu rəqəmlər bizi onlayn təhsilə keçməyə məcbur etmir. Yəni, hal-hazırda mövcud vəziyyət o qədər də təhlükəli deyil. Orta məktəblərə nisbətən ali təhsil müəssisələrində yoluxma halları o qədər də çox deyil. Çünki, ali təhsil müəssisələrində təhsil individual formada həyata keçirilir. Ali təhsil müəssisələrində yoluxma ona görə təhlükəli deyil ki, burada dərslər fərdi qruplar halında keçirilir. Yəni, bir qrupun digəri ilə əlaqəsi yoxdur. Həmçinin, ali təhsil müəssisələrində tədris həftədə 3 dəfədir".

Kamran Əsədov sözlərinə belə davam edib: "Etiraf edək ki, bu tendensiyadan tələbələr sui-istifadə edir. Yəni, tələbələrin əksəriyyəti işləyir və onlara da onlayn tədris sərf edir. Çünki, onlayn tədrisdə kamera və mikrafon söndürülür və rahat işlərini görürlər. Amma biz, təhsilin keyfiyyətindən danışırıqsa, onlayn təhsillə bu mümkün deyil. Lakin, mövcud şəraitdə vəziyyət belədir. Tədrisin tamamilə distanda keçirilməsi ilə bağlı gözlənti isə yoxdur".

*Ayşən Vəli*

# “TRT Haber”: Azərbaycan böyük qətiyyətlə Zəngəzur dəhlizinin açılmasına doğru irəliləyir




***Azərbaycan regionda yaratdığı yeni geosiyasi vəziyyəti əzmlə qoruyur və böyük qətiyyətlə Zəngəzur dəhlizinin açılmasına doğru irəliləyir. AZƏRTAC xəbər verir ki, bu fikirlər Türkiyənin "TRT Haber" telekanalının hazırladığı ekspert müzakirələrində ifadə olunub.***

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan oktyabrın 26-da Azərbaycana rəsmi səfəri və Füzuli Beynəlxalq Hava Limanının açılışında iştirakının siyasi mahiyyətini və strateji məqsədlərini müzakirəyə çıxaran telekanal tanınmış professorlar Saynur Derman və Oktay Tanrısevərin fikirlərini tamaşaçılara çatdırıblar.

Alimlər bildiriblər ki, Füzuli Beynəlxalq Hava Limanının açılışı bütün dünyaya Azərbaycanın ərazi bütövlüyünü bərpa etməklə bu torpaqların əsl sahibi olduğunu bir daha göstərdi. Azərbaycan regionda kompleks inkişaf üçün böyük imkanlara malikdir və bütün hədəflərinə ardıcıl şəkildə çatır. Zəngəzur dəhlizinin açılması istiqamətində atılan ardıcıl addımlar və bunun beynəlxalq əhəmiyyəti şərh olunub.

Müzakirələrdə, eyni zamanda, Azərbaycan Prezidenti İlham Əliyev ilə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın birgə siyasi qərarlarının əhəmiyyəti də yüksək dəyərləndirilib. Vurğulanıb ki, Azərbaycanın yaratdığı yeni siyasi mənzərə regionda bütün tərəflər üçün faydalıdır.

# Peter Erdeyi: “Ağdam ruhlar şəhərinə bənzəyir"

***Macarıstanlı məşhur jurnalist və publisist Peter Erdeyi Azərbaycanın erməni işğalından azad edilmiş ərazilərinə bu yaxınlarda baş tutmuş səfəri haqqında "Elet es Tudomany" jurnalında məqalə dərc etdirib.***



AZƏRTAC xəbər verir ki, Azərbaycana üçüncü dəfə, yaxın vaxtlara qədər "od tutub yanan" Qarabağa isə ilk dəfə səfər etmiş müəllif orada gördüyü dağıntılara görə sarsıldığını bildirir. Erdeyi yazır: "Müharibə kəndlərə, meşələrə, üzümlüklərə, faunaya, insanlara, hətta dəfn edilmiş ölülərə də rəhm etməyib. Qarabağın cənub hissəsindəki yandırılmış torpaq işğalçıların zəbt etdikləri torpaqların sakinlərinə dərin nifrət bəsləməsinə sübutdur".

1917-ci il inqilabına qədər Azərbaycan ərazisində çox xalqların nümayəndələri, hətta öz tarixi vətənlərindən uzaq düşmüş almanlar, polyaklar, yunanlar da yaşayırdı. Burada hətta atəşpərəst hinduların icması da olub. Lakin millətlər palitrasının bir qədər məhdudlaşmasına baxmayaraq indi də burada yaşayan etnik azlıqların xəritəsi yetərincə müxtəlifdir.

SSRİ dağılandan bir il sonra, 1992-ci ildə başlanmış birinci Ermənistan-Azərbaycan müharibəsi iki il davam etdi. Azərbaycanın müstəqil dövlətə çevrilməsindən cəmi bir il keçmişdi və sovet qoşunları onun ərazisini tərk etmişdi. Qonşu Ermənistandan isə bu qoşunlar getmədi, hətta indi də Rusiyanın 102-ci bazasının hərbi kontingenti Ermənistanda yerləşir. Siyasi rejim dəyişəndən və azərbaycanlılara qarşı etnik təmizləmələrdən sonra Ermənistan etnik baxımdan bircins milli dövlətə çevrildi. 2011-ci ildə siyahıyaalma zamanı Ermənistan sakinlərinin yalnız 2 faizi özlərini qeyri-erməni hesab ediblər. Eyni zamanda, əhalisinin sayı 10 milyon olan Azərbaycanda sakinlərin təqribən 10 faizi titul millətinə aid deyil və etnik azlıqları təmsil edir. Bəzi hesablamalara görə, Bakıda təqribən 30 min, Qarabağda isə daha 25 minə yaxın erməni yaşayır. Qafqaz dağlarının cənubunda yerləşən Qarabağın əhalisi əsirlər boyu dəfələrlə dəyişib. Bu, 1992-ci ildə erməni silahlı qüvvələri tərəfindən işğal edilmiş keçmiş Dağlıq Qarabağ Muxtar Vilayəti üçün xüsusilə səciyyəvi idi. Erdeyi xatırladır ki, Qarabağdan əlavə ona bitişik rayonlar da işğal edilmiş, orada ermənilər "bufer zonası" yaratmışdılar.

Müəllif yazır: "Bu yaxınlarda Qarabağın aran rayonlarına səfər zamanı mənə ən güclü təsir göstərən bu oldu ki, bəzən saatlarla bu ərazidə yalnız xarabalıqları görmək mümkün idi, bircə salamat bina, elektrik dirəyi, ağac da qalmamışdı. Hətta vəhşi heyvanlar da görünmürdü. Sanki Ayın səthində idi - qumsal səhra, ətrafda yalnız kötüklər və daşlar var. Bir də, əlbəttə, piyadalar əleyhinə milyonlarla mina. Bu minaların basdırmağın məqsədi o olub ki, bu torpağın əvvəlki sahibləri buraya qayıtmağı ağlına belə gətirməsinlər.

Ağdam şəhərinin taleyi çox faciəli olub. 1993-cü ildə şəhər tamamilə dağıdılıb. İşğalçılar hətta şəhər qəbiristanlığını da dağıdıb, məşhur tarixi şəxsiyyətlərin məzarlarını alt-üst ediblər. Erdeyi öz həmkarı, azərbaycanlı jurnalist Eldar İsmayılovun dediklərini sitat gətirir: "Hər şeyi bərpa etmək olar - evləri də, təsərrüfat tikililərini də, məbədləri də. Amma atamın cəsədinin başına gətirilənləri necə "düzəltmək" olar? Bu, təkcə bizə deyil, mənim ailəmlə eyni vəziyyətdə olan insanların hamısına çox böyük mənəvi zərbədir. Qərara almışam ki, Ermənistana qarşı iddia ilə Avropa Məhkəməsinə müraciət edim. Dağlıq Qarabağa qarşı bunu edə bilmərəm, çünki o, heç kəs tərəfindən tanınmamış siyasi qurumdur".

40 min sakini olan Ağdam şəhəri elə viran qoyulub ki, indi onu çox vaxt "Qafqazın Hirosiması" adlandırırlar. Elə ilk baxışdan görünür ki, bu həqiqətən belədir. Mərkəzi şəhər məscidinin iki uca minarəsi istisna olmaqla bütün şəhər xarabalığa çevrilib. Həmin minarələrdən erməni əsgərlər kəşfiyyat qülləri kimi istifadə edirdilər. Məscidlərdə ermənilər ev heyvanları, o cümlədən müsəlmanlar üçün "murdar" sayılan donuz saxlayıblar.

Macar jurnalist yazır: "Mən orada olanda məscidin daş döşəməsi peyinlə dolu idi. Bu mənzərə mənim təsəvvürümü daha da kəskinləşdirdi. Azərbaycanın məşhur tarixi şəxsiyyətlərinin məzarları, möhtərəm xanların və imamların türbələri dağıdılıb, məzar daşları uçurulub və sındırılıb, skelet qalıqları ətrafa səpələnib. Şəhərin təməlini qoymuş İbrahimxəlil xanın məqbərəsi də dağıdılıb. Xurşidbanu Natəvanın abidəsi dağıdılıb, onun məzarı qazılıb, sümükləri ətrafa səpələnib. XIX əsrdə yaşamış Natəvan xeyriyyəçi olub. Onu Azərbaycan poeziyasının ən yaxşı nümayəndələrindən biri hesab ediblər. Natəvanın əsərləri məhəbbət mövzusunda qəzəllərdir".

Ermənilər müsəlman qəbiristanlıqlarını təhqir etmələrini belə izah edirlər ki, bu yolla xristianlığın əsasını aqressiv şəkildə yayılmaqda olan İslam fundamentalizmindən qoruyurlar. Əgər kimsə hansa Azərbaycanda olubsa o adam təsdiqləyər ki, bu ölkə sülh və asayiş diyarıdır, burada kor-koranə mövhumatdan əsər-əlamət yoxdur.

Erdeyi məqaləsinin sonunda yazır: "Məsələn, bizim sürücü sünni idi, iş vaxtı dayanmadan çalışırdı. Sadəcə, səhər nahar vaxtı və axşam bizim qrupdan aralanır namaz qılırdı. Amma müəzzin səsini eşitmədim. Məhz bu cür liberal münasibətə görə, qonşu ölkələrdən, məsələn İrandan olan milliyyətcə azərbaycanlı turistlər buraya axın-axın gəlir. Onlar bu Avropa ölkəsində istirahət etməyə, alış-veriş və əyləncə üçün gəlirlər".

# “Bərdəyə raket hücumuna görə cavabdeh olanlar məsuliyyət daşımalıdırlar”



Azərbaycan xarici işlər naziri Ceyhun Bayramov Ermənistanın Bərdəni raket atəşinə tutmasının ildönümü ilə bağlı paylaşım edib. SİA məlumatına görə, C.Bayramovun "Twitter" səhifəsində etdiyi paylaşımda bildirilib: "2020-ci ilin 27-28 oktyabr tarixlərində Ermənistan silahlı qüvvələrinin Azərbaycanın Bərdə şəhərinə raket hücumları nəticəsində çox sayda günahsız dinc azərbaycanlı həlak olub. "Bu dəhşətli hücumun qurbanlarını dərin hüznlə yad edirik. Bu hərbi cinayətə görə cavabdeh olanlar məsuliyyət daşımalıdırlar!"

Xatırladaq ki, 2020-ci il oktyabrın 27-də Bərdə rayonunun Qarayusifli kəndi Ermənistan tərəfindən "Smerç" raketlərinin atəşinə məruz qalıb. Hadisə nəticəsində dinc sakinlər - Cəfərova Ofeliya Məcid qızı, Əhmədova Aybəniz Əşrəf qızı, İsmayılov Ehtiram Xəlil oğlu, 2013-cü il təvəllüdlü İsgəndərova Aysu Rövşən qızı həlak olub, 10-dan çox şəxs yaralanıb.

# Ukraynalı deputat: “Rəsmi Bakı və Ankara Qarabağın siyasi və iqtisadi inkişafı ilə bağlı qətiyyət nümayiş etdirir”



Azərbaycan və Türkiyə prezidentlərinin Füzuli Beynəlxalq Hava Limanının açılışında və Horadiz-Cəbrayıl-Zəngilan-Ağbənd avtomobil yolunun təməlinin qoyulmasında iştirakından danışanda, ilk növbədə, bunun böyük rəmzi məna daşıdığını demək olar. Azərbaycan və türk xalqlarının tarixi və mədəni birliyi var. Bakı və Ankara təbii müttəfiqdirlər. Deməli, belə görüşlər Azərbaycan və türk xalqları arasında dostluğun sarsılmazlığını bir daha göstərir.

Bu sözləri AZƏRTAC-a müsahibəsində Azərbaycan və Türkiyə prezidentləri İlham Əliyev və Rəcəb Tayyib Ərdoğanın Füzuli Beynəlxalq Hava Limanının rəsmi açılış, həmçinin Zəngəzur dəhlizinin təməlqoyma mərasimlərində iştirakını şərh edərkən Ukrayna-Azərbaycan parlamentlərarası dostluq qrupunun həmsədri, Ukrayna Ali Radasının deputatı Valeriy Kolyux deyib.

Onun sözlərinə görə, Füzuli Beynəlxalq Hava Limanının birgə açılışı və Zəngəzur dəhlizinin təməlinin qoyulması Şuşa Bəyannaməsinin bir sıra bəndlərinin faktiki olaraq həyata keçirilməsidir. Beləliklə, həm Bakı, həm də Ankara Qarabağın, eləcə də bütövlükdə Cənubi Qafqazın siyasi və iqtisadi inkişafı ilə bağlı mövqelərinin qətiyyətliliyini nümayiş etdirir.

"Xüsusi vurğulamaq istərdim ki, həm Azərbaycan, həm də Türkiyə Ukraynanın strateji tərəfdaşıdır. Ona görə də biz təkcə Qarabağın bərpasında Azərbaycanın uğurlarını yaxından izləməklə kifayətlənmir, həm də Cənubi Qafqazda təhlükəsizliyin gücləndirilməsini alqışlayırıq", - deyə Valeriy Kolyux əlavə edib.

# İlham Əliyev: "Bu Qələbə bütün dünyaya bizim böyük xalq olduğumuzu göstərdi!"

TƏHLİL

Azərbaycan 44 günlük Vətən müharibəsində qələbə qazanaraq Zəfər tarixini əbədiləşdirdi. Ermənistanın 30 ilə yaxın davam edən işğalçılıq siyasətinə son qoyuldu. Bir il bundan əvvəl şanlı tariximizin yeni səhifələri yazıldı. 27 sentyabr tarixindən başlanan Vətən müharibəsində Azərbaycan elə ilk günlərdən qələbə qazanaraq qələbədən-qələbəyə doğru addımladı. Ötən bir il ərzində Azərbaycan dünyaya öz gücünü göstərə bildi. "27 ildən sonra biz işğala son qoyduq, düşməni öz torpağımızdan qovduq. Müzəffər Azərbaycan Ordusu öz şərəfli missiyasını şərəflə yerinə yetirdi. İkinci Qarabağ müharibəsi bizim gücümüzü göstərdi və milli ruhumuzu göstərdi. Göstərdi ki, biz heç vaxt o vəziyyətlə barışmaq fikrində deyildik. Əgər qubadlılılar digər keçmiş köçkünlər kimi, hər il böyük ürəkağrısı ilə işğal günündə yığışırdılarsa, bundan sonra artıq o tarix tamamilə silindi, ancaq 25 oktyabrda hamımız bayram edəcəyik". Bu sözləri Azərbaycan Prezidenti İlham Əliyev oktyabrın 25-də Qubadlı rayon ictimaiyyətinin nümayəndələri ilə görüşü zamanı bildirib. Bir il əvvəl Azərbaycan Ordusu Qubadlını erməni işğalından azad edərək böyük qələbə qazandı. "25 oktyabr müharibənin gedişatında önəmli yer tutub", - deyən Azərbaycan Prezidenti bildirib ki, Qubadlı azad olunandan sonra Laçın istiqamətində yolumuz açıldı və bir neçə gündən sonra biz Laçının cənub hissəsində yerləşən kəndləri də azad etdik: "Beləliklə, Laçın dəhlizini nəzarətə götürdük və artıq müharibənin taleyi həll edilmişdi. Düzdür, hələ Şuşa uğrunda şiddətli döyüşlər qabaqda idi, digər yaşayış məntəqələrimizin azad olunması ilə bağlı əməliyyat planları hazırlanırdı, ancaq artıq həm bütün dünya, həm də düşmən gördü ki, bizim qabağımızda heç bir qüvvə dayana bilməz. Biz Qubadlıdan sonra öz Zəfər yürüşümüzü, Zəfər missiyamızı şərəflə davam etdirdik və noyabrın 8-də Şuşada dövlət bayrağını ucaltdıq".





### "BİZ QUBADLI RAYONUNUN BÜTÜN KƏNDLƏRİNİ, O CÜMLƏDƏN QUBADLI ŞƏHƏRİNİ YENİDƏN QURACAĞIQ"

Bu gün işğaldan azad olunan ərazilərimizdə abadlıq-quruculuq işlərinə başlanılıb. Bu torpaqlar erməni işğalı dövründə darmadağın edilərək yararsız bir vəziyyətə salınıb. "Qubadlı şəhəri demək olar ki, yerlə-yeksan edilib, bir salamat bina yoxdur", deyən Cənab Prezident sadəcə olaraq, erməni hərbçilərinin öz məqsədləri üçün bir neçə binadan istifadə etdiklərini bildirib: "Biz Qubadlı rayonunun bütün kəndlərini, o cümlədən Qubadlı şəhərini yenidən quracağıq. Qubadlı şəhərinin Baş planı hazırlanır və yəqin ki, yaxın aylarda təqdim ediləcək, o cümlədən Qubadlı ictimaiyyətinə təqdim ediləcəkdir. Əlbəttə ki, bu Baş plan ən müasir normalara uyğun olacaq və Qubadlının təbiəti və tarixi keçmişi də memarlıqda nəzərə alınacaq". Dövlət başçısı artıq bu gün Qubadlı rayonunun gələcək inkişafı ilə bağlı əməli-praktiki işlərin aparıldığını bildirib.

Vurğulayaq ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Birinci xanım Mehriban Əliyevanın bu əraziyə səfəri çərçivəsində "Qubadlı" yarımstansiyasının açılışı olub. Xatırladaq ki, bu günə qədər Şuşa, Füzuli, Kəlbəcər, Cəbrayıl kimi ərazilərdən sonra Qubadlıda yeni yarımstansiya tikilib. Beləliklə, işğaldan azad edilmiş ərazilərin 80 faizi Azərbaycanın ümumi enerji sisteminə qoşulmaqla yanaşı, elektrik xətləri üzərindəki optik kabellər vasitəsilə yarımstansiya və rayonlardakı lazımi strukturlar internetlə təmin edilib. İşğaldan azad edilən digər rayonlardakı yarımstansiyalarda olduğu kimi, Qubadlıda da Dördüncü Sənaye İnqilabına uyğun olaraq intellektual enerjisistem şəbəkəsi konsepsiyası həyata keçirilərək müasir, dayanıqlı, tam rəqəmsallaşdırılmış yarımstansiya yaradılıb. Sovet vaxtında Qubadlı rayonunun ümumi istehlakının 12 meqavat olduğunu bildirən Cənab Prezident bu yarımstansiyanın 40 meqavata hesablandığını və lazım olarsa, onun gücünün iki dəfə artırıla biləcəyini bildirib: "Yəni, biz Qubadlının gələcək inkişafını belə görürük. Sovet vaxtında, işğala qədər Qubadlı rayonunun əhalisi haradasa 28 min idi, indi mənə verilən məlumata görə əhali 40 minə çatıb".

Bütün kəndlərin, şəhərin dağıdıldığını bildirən Cənab Prezident qubadlılıları burada yerləşdirmək üçün əlbəttə ki, çox böyük işlər görüləcəyini diqqətə çatdırıb: "Burada infrastruktur işləri birinci sıradadır. İndi siz də gələndə gördünüz ki, çox geniş, dördzolaqlı yol çəkilir. Heç vaxt bu ölçüdə yol olmamışdır. Dar bir yol idi Zəngilandan Qubadlıya, Laçına. İndi biz Zəngilandan Qubadlıya, Laçına dördzolaqlı yol çəkirik ki, bu yoldan insanlar rahat istifadə etsinlər. Eyni zamanda, burada istehsal olunacaq məhsulları bazarlara vaxtlı-vaxtında, itkisiz çatdırmaq üçün imkan olsun".

### "HƏKƏRİ ÇAYI NƏİNKİ QUBADLININ, BÜTÜN AZƏRBAYCANIN, BİZİM BÖYÜK SƏRVƏTİMİZDİR"

Azərbaycanın iqtisadi gücü işğaldan azad olunan ərazilərdə yeni həyatın başlanmasına imkan verəcək. Artıq Şuşada, Füzulidə, Zəngilanda görülən işlər bunu deməyə əsas verir. Beynəlxalq hava limanlarının tikintisi Azərbaycanın nəhəng quruculuq işlərinin həyata keçirməsindən xəbər verir. Bildiyimiz kimi, Füzulidə Beynəlxalq hava limanı tikilib. Zəngilan hava limanı isə 2022-ci ildə istifadəyə veriləcək. Bu, Azərbaycanın gücünün göstəricisidir. Hərb meydanında sözünü deyən Azərbaycan bu gün quruculuq meydanında da imza atdığı lahiyələri ilə sözünü deyir. Yaxın gələcəkdə Qubadlıda məktəblər, xəstəxanalar tikiləcək, yeni yaşayış binaları qubadlıların ixtiyarına veriləcək: "Sovet vaxtında daha çox fərdi evlər idi. Bir neçə beşmərtəbəli ev var idi. Bir-iki evin qalıqları qalıb. Ancaq Qubadlı şəhər kimi inkişaf etməlidir. Əlbəttə ki, düzgün planlaşdırma aparılarkən burada insanların rahat yaşaması üçün bütün şərait yaradılacaq. İqtisadi inkişafa gəldikdə, əlbəttə, rayon ictimaiyyəti də burada çox fəal iştirak etməlidir - həm bərpa işlərində, eyni zamanda, Qubadlının düzgün inkişaf konsepsiyasının işlənməsində".

Rayonun böyük potensiala malik olduğunu qeyd edən Cənab Prezident buranın zəngin təbiəti, təbii sərvətləri olduğunu bildirib: "Qubadlı rayonu ərazisindən iki böyük çay keçir, Bazarçay düz şəhərin ortasından keçir. Həkəri çayı nəinki Qubadlının, bütün Azərbaycanın, bizim böyük sərvətimizdir. Çünki biz bu çaylardan məhrum idik. Həkəridən də, Bazarçaydan da, Bəsitçaydan da, Tərtər çayından da məhrum idik. Ermənilər bizi məhrum etmişdi. Bu, böyük sərvətdir. Özü də indiki şəraitdə ki, su resursları dünyada gələcəkdə əsas yeni, yaşayış üçün əsas resurs kimi artıq tanınır. Ona görə düzgün planlaşdırma aparılmalıdır, iqtisadi inkişaf, hansı sahələr inkişaf edəcək".

### "BİZ ARTIQ GÖSTƏRMİŞİK Kİ, HEÇ KİMİN QABAĞINDA BAŞ ƏYƏN XALQ DEYİLİK"

Bu gün reallaşan layihələr Qubadlının işıqlı gələcəyindən xəbər verir. Dövlət başçısının Qubadlıya səfəri çərçivəsində Xanlıq-Qubadlı yolunun təməli qoyulub. Başlanğıcını Hacıqabul-Horadiz-Ağbənd-Zəngəzur dəhlizi magistral avtomobil yolunun Xudafərin su anbarı yaxınlığından keçən hissəsindən götürən bu yolun uzunluğu 56,4 kilometrdir. Qubadlı-Eyvazlı avtomobil yolunun uzunluğu 26 kilometr, eni 7 metr olacaq. Bu yollar Prezident İlham Əliyev tərəfindən təsdiq olunmuş işğaldan azad edilmiş ərazilərin yenidən qurulması və bərpası layihəsi çərçivəsində tikilir. Dövlət başçısının tapşırığına əsasən, Qarabağın inkişaf planı nəzərə alınmaqla Xudafərin-Laçın və Xanlıq-Qubadlı avtomobil yolları dörd hərəkət zolaqlı olacaq. Yeni inşa olunan yollar işğaldan azad edilmiş Zəngilan, Qubadlı və Laçın rayonlarının ərazisindən keçir. Avtomobil yolu Qubadlı və Laçın şəhərləri də daxil olmaqla, bu rayonların 30-dan çox yaşayış məntəqəsini əhatə edir.

Qubadlıda görülən işlərdən söz açarkən, əlbəttə ki, Qubadlı rayonunda Dövlət Sərhəd Xidmətinin yeni hərbi hissə kompleksinin açılışını da qeyd etməliyik. Məlumdur ki, işğaldan azad olunmuş ərazilərdə Prezident, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin tapşırığına əsasən, zəruri sərhəd müdafiə və mühafizə infrastrukturunun yaradılması üzrə fəaliyyətlər davam etdirilir. Azərbaycanın Ermənistanla dövlət sərhədinin Qubadlı və Laçın rayonları ərazisindən keçən hissəsinin mühafizəsini təmin edən Dövlət Sərhəd Xidmətinin yeni hərbi hissə kompleksinin ərazisi 25 hektardır. Kompleksin döyüş texnikası parkında helikopterlər, "HAROP", "Quzğun" və "Qırğı" zərbəendirici pilotsuz uçuş aparatları, tank əleyhinə dəzgahlı qumbaraatanlar və idarə olunan raketlər, 120 və 82 millimetrlik minaatanlar, zenit qurğuları və digər müasir silah sistemləri mövcuddur. Hərbi hissə kompleksində qərargah binası, zabit-gizir və əsgər yataqxanaları, şəxsi heyət üçün lazımi şəraitlə təmin edilmiş iş otaqları, yeməkxana, yaşayış binaları, anbarlar və digər zəruri infrastruktur yaradılıb. Bu hərbi hissədə xidmətin yüksək səviyyədə aparılması, şəxsi heyətin döyüş qabiliyyətinin təkmilləşdirilməsi, peşəkar vərdişlərinin daha da inkişaf etdirilməsi üçün hərtərəfli şərait yaradılıb.

"Müharibə başa çatıb və düzdür, bizi hələ döyüşməyə məcbur edirlər, biz də hazırıq. İstənilən formada, necə deyərlər, meydançada - istər siyasi meydanda, istər hərbi meydanda", - deyən Prezident bildirib ki, biz artıq göstərmişik ki, heç kimin qabağında baş əyən xalq deyilik: "Ancaq bununla yanaşı, bizim qarşımızda çox böyük quruculuq işləri dayanır. Bu da müharibədə əldə edilmiş Qələbəyə uyğun səviyyədə aparılmalıdır. Ümumiyyətlə, bu tarixi Zəfərdən sonra ölkəmizin yeniləşməsi, müasirləşməsi, aparılan islahatlar, xoşagəlməz hallarla mübarizə, əlbəttə, tam yeni müstəviyə çıxmalıdır. Çünki bu Qələbə bütün dünyaya bizim böyük xalq olduğumuzu göstərdi, eyni zamanda, bizi sözün yaxşı mənasında məcbur edir ki, biz qabağa ancaq düz yolla gedək".

*Nəzakət ƏLƏDDİNQIZI*

*"Rusiyanın vasitəçiliyi ilə Azərbaycan və Ermənistan arasında üçtərəfli bəyanatın imzalanmasından bir il keçsə də Ermənistanın üzərinə götürdüyü və icra etməsi şərt olan məsələlərin həlli gecikir. Azərbaycanın təklif etdiyi şərtlər bəllidir: sərhədlərin delimitasiya və demarkasiyası, qarşılıqlı olaraq Ermənistanın və Azərbaycanın bir-birinin ərazi bütövlüyünü tanıması və sonda böyük sülh sazişinin imzalanması". Bu fikirləri SİA-ya açıqlamasında politoloq Şəbnəm Həsənova deyib.*



# Mümkün üçtərəfli görüşün pərdə arxası detalları nə ola bilər?

Politoloqun sözlərinə görə, üçtərəfli formatda görüş ən son 11 yanvarda Moskvada baş tutub: "Növbəti belə bir görüşün keçirilməsi labüd olsa da bu görüşün keçiriləcəyi ilə bağlı heç bir tərəfdən rəsmi məlumat mövcud deyil. Bu baxımdan da məsələni şərh etmək ehtimallara əsaslanır. Əvvələ, onu deyim ki, həllini tapmayan bu qədər məsələlərin olduğu halda indiki məqamda sülh müqaviləsinin imzalanacağı real deyil. Çünki ən azından sülh müqaviləsinin imzalanmasına hazırlıq prosesi başlamalıdır. Bunların şahidi deyilik. Buna doğru aparan işlər də həll olunmalıdır. Yəni, sülh müaviləsinin imzalanmasına aparan işlər müzakirə olunmalı və ortaq dil tapılmalıdır. Məsələn, delimitasiya və demarkasiya işlərinin həll edilməsi üçün müştərək komissiya formalaşdırılmalıdır. Bununla yanaşı, mina xəritələrinin doğruluğu 25%-dir. Ermənistan bu işdə dəqiq davranmalı, Rusiya da məcburetmə mexanizmini gücləndirməlidir. Çünki bu iş vaxt və maliyyə itkisinə səbəb olur".

Ekspert vurğulayıb ki, zamanlama baxımından dəyərləndirsək Türkiyə Prezidenti Ərdoğanın Qarabağa reallaşdırılan səfərindən, Füzuli hava limanının açılışı və Zəngəzur dəhlizinin təməlinin qoyulmasından sonra belə bir görüşün baş tutması Azərbaycan tərəfini bu görüşə daha da qətiyyətli, prinsipial və 11 yanvar Moskva görüşünə gedildiyi kimi üstün tərəf kimi getmək işinə mühüm təsir edən amildir: "Belə ki, cənab Prezident İlham Əliyevin və Türkiyə Prezidenti Ərdoğanın Zəngilanın Ağalı kəndində mətbuata birgə bəyanatlarla çıxışları zamanı olduqca mühüm mesajlar verdilər. Dövlətimizin başçısının reallaşdırılan layihələrlə gələcəyə doğru baxaraq bir daha prinsipial mövqe tutduğunun şahidi olduq. Ərdoğan isə bütün bölgə üçün birlikdə qurulacaq firavan gələcəyi kiçik hesablara və daxili siyasətə qurban verməyin lazım olmadığını bildirdi. Çünki belə addımlar nəticədə onsuz da reallaşdırılacaq və baş tutacaq işlərin qarşısını almayacaq, sadəcə gecikdirərəcək ki, itirən qarşı tərəf olacaq. Ləngimə Ermənistanda onsuz da iflic vəziyyətdə olan sosial-iqtisadi durumu getdikcə pisləşdirəcək. Hər nə qədər yardım alsalar da daxili və xarici revanşist ünsürlərə uymaq ölkə iqtisadiyyatının özünün ayağa durmağa çalışmalı olduğunu reallığını ləngidəcək".

Ş.Həsənova vurğulayıb ki, Rusiya prezidenti Vladimir Putinin Azərbaycanın Naxçıvanla normal əlaqələrinin qurulmasını, kommunikasiyaların açılmasını Ermənistanın qarşısında duran ən ümdə vəzifələrindən biri kimi müəyyənləşdirdiyini nəzərə alsaq, o zaman bu fakt və bütün sadalanan amillərlə birgə yüksək səviyyədə müzakirə edilməlidir. Dayanıqlı sülhün təmin olunması və möhkəmləndirilməsi, əlaqələrin normallaşması üçün indi hər zaman olduğundan daha böyük şanslar və zəmin var. Bölgədə yaradılan yeni reallıq nəzərə alınaraq mehriban qonşuluq münasibətlərinin əsası anlayışdan keçməlidir. Bu işdə də vasitəçilik Rusiyanın üzərindədir, düşünürəm ki, üçtərəfli görüş də Rusiyanın təşkilatçılığı vasitəsilə reallaşdırılmalıdır. Ermənistan hazırda yaranmış tarixi şansdan yararlana bilər, çünki başqa yolu yoxdur".

***Aysel Məmmədova***



# Füzuli Hava Limanının əhəmiyyəti nədən ibarətdir?

*"Füzuli Beynəlxalq Hava Limanı Qarabağ və Azərbaycan üçün həm iqtisadi, həm də strateji əhəmiyyət daşıyır. Nəzərə alsaq ki, bu liman Azərbaycan Prezidenti tərəfindən "Qarabağın hava qapısı" elan olunub. Bu o deməkdir ki, Qarabağ növbəti dövrdə praktik olaraq hava nəqliyyatını Füzuli Hava Limanı vasitəsilə həyata keçirəcək".*

Bu sözləri SİA-ya açıqlamasında deputat Vüqar Bayramov deyib. Onun sözlərinə görə, bir tərəfdən Qarabağın və işğaldan azad olunmuş ərazilərimizin iqtisadi potensialının böyük olduğunu nəzərə alsaq, Füzuli Hava Limanı həmin potensialın reallaşmasına imkan verəcək: "Çünki, Füzuli Hava Limanı hər növ təyyarələri qəbul etmək imkanına malik olacaq. Bu da beynəlxalq yükdaşımalara və region üzərində daşınan yüklərin həcminə icazə verəcək".

Deputat sözlərinə belə davam edib: "Nəzərə alsaq ki, bərpa və yenidənqurma, eləcə də məskunlaşma prosesindən sonra işğaldan azad olunmuş ərazilərimizdə ölkə iqtisadiyyatının 8 faizinin formalaşacağı nəzərdə tutulur ki, bu da 5 milyard manatdan artıq yeni dəyər deməkdir. Bu imkan verəcək ki, həmin dəyərin fərqli bazarlara çıxarılması və yaranmış dəyərin realizasiyasında Füzuli Hava Limanının töhfəsi olsun. Turizmin inkişafına da bu limanın böyük töhfəsi olacaq. Çünki Füzuli şəhəri Şuşa şəhəri ilə "Zəfər yolu" vasitəsilə birləşir. Həmçinin, bu şəhərləri birləşdirəcək yeni yol inşa edilir".

"Füzuli Hava Limanı həm də strateji əhəmiyyət daşıyır. Çünki, hava limanları həm də ölkənin strateji mövqeyinin güclənməsi, təhlükəsizliyinin genişləndirilməsi baxımından vacibdir".

***Ayşən Vəli***

# Sergey Markov: Rusiya Ermənistana təzyiq göstərir, onu Azərbaycanla sülhə sövq edir



"Hazırda Rusiyanın vasitəçiliyi ilə Azərbaycan və Ermənistan arasında üçtərəfli sülh sazişinin imzalanması şansı minimaldır". SİA xəbər verir ki, bu fikirləri Rusiyanın dövlət və ictimai xadimi, diplomat Sergey Markov "Calibr" analitik mərkəzinə müsahibəsində noyabrın birinci ongünlüyündə Moskvada Vladimir Putin, İlham Əliyev və Nikol Paşinyanın görüşünün keçirilə biləcəyi və burada üçtərəfli sazişlərin və ya bəyanatların imzalanması ilə bağlı mətbuatda yayılan xəbərləri şərh edərkən deyib.

Markovun sözlərinə görə, sülh sazişi sərhədlərin tam tanınmasını nəzərdə tutur və bu gün nə Ermənistanın ictimai rəyi, nə də bu ölkənin rəhbərliyi hələ Qarabağın Azərbaycanın bir hissəsi olduğunu etiraf etməyə hazır deyil.

"Eyni zamanda, hələ sərhədlərin qarşılıqlı tanınmayacağı, lakin sülh yolu ilə nizamlanma istiqamətində ciddi irəliləyişlərin olacağı başqa sülh sazişinin imzalanması üçün yaxşı şanslar var. Və əsl sülh sazişi bir müddət sonra gələcək. Ermənistan demək olar ki, Qarabağın Azərbaycan olduğunu de-fakto tanımağa hazırdır, lakin de-yure və siyasi baxımdan hələ buna hazır deyil.

Düşünürəm ki, Paşinyan sülh müqaviləsi imzalamaq və Azərbaycanın, o cümlədən Qarabağın sərhədlərinin tanınması ilə bağlı qərar versə, o zaman kütləvi etirazlar baş verəcək və o, Robert Köçəryanın başçılıq etdiyi "Qarabağ klanı" tərəfindən postundan devrilə bilər.

Rusiya Ermənistanı sülhə məcbur edə biləcəkmi? Düşünürəm ki, Rusiya diplomatiyası Ermənistana yumşaq təzyiq göstərir, onu Azərbaycanla sülhə doğru sövq edir. İrəvana heç bir sərt təzyiq olmayacaq, çünki Moskva Ermənistanın Qarabağın tamamilə itirilməsi və Qarabağın Azərbaycan olduğunun tam şəkildə tanınması kimi ağır geosiyasi məğlubiyyətə görə tam siyasi məsuliyyəti öz üzərinə götürmək istəmir", - Sergey Markov bildirib.

Daha sonra politoloq Ermənistanda anti-Rusiya əhval-ruhiyyəsinin artması ilə bağlı fikirlərini bildirib: "Anti-Rusiya əhval-ruhiyyəsi Ermənistan ictimaiyyətinin Rusiyanın 44 günlük müharibədə özünü müttəfiq kimi deyil, bitərəf tərəf kimi apardığına inanması ilə bağlıdır. Ermənilər Rusiyadan çox inciyirlər, çünki Moskva Ermənistana hərbi yolla kömək etmək əmrini vermədi, çünki ermənipərəst lobbinin nümayəndələri, xüsusən də Konstantin Zatulin buna çağırırdı.

Mühüm amil Nikol Paşinyanın qərbyönümlü siyasətçi və Rusiya əleyhinə olmasıdır. Onun komandasındakı erməni mediasına nəzarət edən adamların çoxu Ermənistanda rusofob fikirlər səsləndirən daha parlaq anti-Rusiya siyasətçiləridir.

Anti-Rusiya təbliğatı aparmağa çalışan, Moskvanı Ermənistanın məğlubiyyətində ittiham edən, bu yolla erməni ictimaiyyətinin müti və depressiya vəziyyətindən istifadə edərək onları tamamilə Rusiya əleyhinə yönəltməyə çalışan Qərb dövlətlərinin mövqeyini də qeyd edərdim. Belə ölkələr arasında, ilk növbədə, Rusiyanın kifayət qədər gərgin münasibətlərdə olduğu Fransanı qeyd etmək lazımdır".

***Tərcümə - Elçin Bayramlı***



# Vüqar Rəhimzadə: "Dünyaya ünvanlanan birlik, həmrəylik, qardaşlıq mesajı"

*Türkiyə və Azərbaycan bütün dünyada prinsipial, cəsarətli, düşünülmüş siyasət yürüdən ölkələr kimi tanınırlar*

*"Möhkəm təmələ, ən əsası beynəlxalq hüququn norma və prinsiplərinə əsaslanan münasibətlər daim yüksələn xətlə inkişaf edir, yeni-yeni prioritetlərin müəyyənləşdirilməsinə stimul olur. Bu gün dünyaya nümunə olan Türkiyə-Azərbaycan dostluğu, qardaşlığı məhz bu prinsiplərə əsaslanır. Artıq bu əlaqələr müttəfiqlik səviyyəsinə yüksəlib.*

Bu müttəfiqlik sənədinə şahidlik edən Qarabağın tacı, musiqi beşiyimiz Şuşa oldu. Bu ilin 15 iyununda- Milli Qurtuluş Günündə bu unikal şəhərdə Türkiyə və Azərbaycan bayraqlarının yan-yana dalğalanması fonunda dünyaya ünvanlanan birlik, həmrəylik, qardaşlıq mesajı olan Şuşa Bəyannaməsində öz əksini tapmışdır. Bu sənəd iki dost ölkənin münasibətlərində yeni mərhələnin əsası oldu. Dövlət başçısı İlham Əliyev Zəngilanın Ağalı kəndində mətbuata bəyanatında da bu məqama, bu tarixi hadisəyə xüsusi diqqət yönəldərək bildirdi ki, Şuşa şəhərində imzalanan Şuşa Bəyannaməsi tarixi sənəddir. Bu Bəyannamə bizim əlaqələrimizi rəsmən müttəfiqlik səviyyəsinə qaldırmışdır". Bu fikirləri Yeni Azərbaycan Partiyası (YAP) Xətai rayon təşkilatının sədri, siyasi elmlər doktoru Vüqar Rəhimzadə SİA-ya açıqlamasında bildirib.

V.Rəhimzadə qeyd edib ki, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın işğaldan azad edilmiş torpaqlarımıza ikinci səfəri hazırda bütün dünyanın diqqətində olan ən mühüm siyasi hadisədir: "Bu səfər bir daha göstərir ki, 44 günlük İkinci Qarabağ müharibəsində qardaş Türkiyənin Azərbaycana siyasi və mənəvi dəstəyi ilə tarixi Qələbəmizə əldə olunmasına necə nail olduqsa, bu gün də Prezident Rəcəb Tayyib Ərdoğan işğaldan azad edilmiş ərazilərimizə səfəri ilə soydaşlarımızın Böyük Qayıdışına yönələn addımların reallaşmasına öz töhfələrini vermək istəyini nümayiş etdirir. Prezident İlham Əliyevin qeyd etdiyi kimi, bu gün regional məsələlərdə, hətta dünya çapında Türkiyə və Azərbaycan əməkdaşlığı, qardaşlığı önəmli amilə çevrilib. Türkiyə Rəcəb Tayyib Ərdoğanın liderliyi ilə artıq dünya çapında böyük gücə çevrilib və heç kim Türkiyəyə öz iradəsini diktə edə bilməz. Öz milli ləyaqətini, xalqının, dövlətinin maraqlarını, qürurunu qoruyan və müdafiə edən Lider bu gün Azərbaycandadır, Zəngilandadır, Ağalıdadır. Bütün türk dünyası üçün Rəcəb Tayyib Ərdoğan faktoru ən önəmli amillərdən biridir".

"Qardaş ölkənin Prezidentinin səfəri Azərbaycan-Türkiyə sarsılmaz birliyinin əyani təzahürü, dövlətlərimiz arasında dostluğun, əməkdaşlığın regional və dünya miqyasında önəmli amilə çevrilməsinin göstəricisidir" söyləyən YAP Xətai rayon təşkilatının sədri bildirib ki, dünyada dil və etnik baxımdan bir-birinə yaxın ölkələrin çoxluğu fonunda Azərbaycan-Türkiyə birliyi nümunəvi xarakter daşıyır: "Prezidentlər İlham Əliyevin və Rəcəb Tayyib Ərdoğanın dostluğu və liderliyi yalnız iki ölkənin münasibətlərində deyil, regionda və dünyada cərəyan edən proseslərə təsirində də özünü göstərir. Hər iki Lider öz əməli fəaliyyətləri ilə milli maraqları hər şeydən üstün tutduqlarını və qətiyyətlə qoruduqlarını nümayiş etdirirlər. Bu gün öz liderlərinin sayəsində Türkiyə və Azərbaycan böyük uğurlar qazanır, bütün dünyada prinsipial, cəsarətli, düşünülmüş siyasət yürüdən ölkələr kimi tanınır və qəbul edilirlər".

Vüqar Rəhimzadə diqqəti Azərbaycanın gələn ay Türk Şurasında sədrliyini Türkiyəyə təhvil verəcəyinə yönəldərək bildirib ki, iki qardaş ölkənin birgə səyləri nəticəsində reallığa çevrilən layihələr, irəli sürülən təşəbbüslər bütün türk dünyasının birliyinə, həmrəyliyinə xidmət edir: "Buna əmin olmaq üçün təkcə son illər dünyanı cənginə almış koronavirus infeksiyasına qarşı mübarizə tədbirlərinə başlandığı vaxtlarda Azərbaycanın dünyaya etdiyi birlik, həmrəylik çağırışlarına diqqət yetirmək kifayətdir. Bu təşəbbüslər beynəlxalq dəstək qazanaraq reallığa çevrildi. Belə ki, öncə türk dünyasının birliyinə, həmrəyliyinə nail olmaq üçün Türk Şurasının Zirvə görüşünün keçirilməsi təşəbbüsü ilə çıxış edib onu reallığa çevirən Azərbaycan daha sonra dünyanı bir araya gətirdi. Ölkəmizin Türk Şurasında fəaliyyəti, ən əsası bu təşkilata sədrliyi dövründə atdığı addımlar daim təqdir olunub. Sədrliyin Türkiyə kimi qüdrətli, beynəlxalq hüququ və ədaləti müdafiə edən bir dövlətə təhvil verilməsi təbii ki, hədəflərin reallığa çevrilməsinə böyük dəstəkdir. Beynəlxalq hüququn zamana və məkana görə tətbiq olunduğu, dünyanın əksər ölkələri arasında etimad mühitinin qorunmadığı bir zamanda Azərbaycan-Türkiyə birliyinin yüksələn xətlə inkişafı, həmçinin Türk Şurasına sədrliyin iki qardaş ölkədən bir-birinə təhvil verilməsi olduqca əhəmiyyətlidir. Dövlət başçısı İlham Əliyev bu əminliyi ifadə edir ki, Türkiyə əziz qardaşımın rəhbərliyi ilə Şuraya uğurlu sədrlik edəcək. Türk dövlətləri arasındakı əməkdaşlıq və qardaşlıq əlaqələri daha da güclənəcək, beləliklə, bütün türk dünyası üçün yeni imkanlar açılacaq".

YAP Xətai rayon təşkilatının sədri diqqəti həyata keçirilən müstəqil və qətiyyətli siyasət nəticəsində Türkiyənin qlobal güc amilinə çevrilməsinə, Türkiyə Prezidentinin BMT-də ikili standartı tənqid edərkən söylədiyi "Dünya 5-dən böyükdür" fikrinə yönəldərək Azərbaycanın 30 illik işğal dövründə münaqişənin həllində vasitəçilik missiyasını yerinə yetirən ATƏT-in Minsk qrupu həmsədrlərinin, ən əsası BMT Təhlükəsizlik Şurasının beş daimi üzvündən üçünün - Rusiya, ABŞ və Fransanın Ermənistana havadarlığının sonda hansı vəziyyətə gətirib çıxarmasından bəhs edib: "30 il imitasiya naminə danışıqlara dəstək olmaq münaqişənin həlli prosesinin uzanması ilə Ermənistanın yeni ərazilər uğrunda müharibə planlarına yol açdı. Ermənistan silahlı qüvvələrinin ötən ilin sentyabrın 27-də müxtəlif istiqamətlərdən hücumlarının qarşısını almaq üçün Zəfər yürüşünə başlayan Azərbayan Ordusu dövlət başçısı, Müzəffər Ali Baş Komandan İlham Əliyevin qətiyyəti sayəsində tarixi Qələbəyə imza atdı. Hadisələr bir daha bu reallığı təsdiqlədi ki, beynəlxalq münasibətlərdə güc və hüquq əsas amildir. Azərbaycanın gücü, qüdrəti, ən əsası müstəqil siyasəti hər bir uğurunun əsasıdır. İstər Azərbaycanın, istərsə də qardaş Türkiyənin timsalında bu fikri xüsusi qeyd edə bilərik ki, dünya həqiqətən də beşdən böyükdür".

# Politoloq: "Azərbaycanla gərginlik İranın maraqlarına cavab vermir"

***"İran Azərbaycanla münasibətləri süni surətdə gərginləşdirdi ki, buna ehtiyac yox idi. Biz dəfələrlə dedik ki, Qarabağa qanunsuz yük daşınmasın. Son ay yarımda münasibətlər xeyli gərginləşdi, Azərbaycan əleyhinə müəyyən açıqlamalar verildi, amma son vaxtlar hiss olunur ki, geri addım atırlar." Bu sözləri SİA-ya açıqlamasında "Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri Elxan Şahinoğlu deyib.***



Mərkəzin rəhbərinin sözlərinə görə, yəqin anladılar ki, Azərbaycanla gərginlik İranın maraqlarına cavab vermir. "Azərbaycanın özü də qonşu dövlətlərlə gərginlikdə maraqlı deyil, o cümlədən İranla. Biz İranla ortaq layihələr reallaşdırmaq istəyirik. Biz Araz çayı üzərində su elektrik stansiyasında, Şimal-Cənub nəqliyyat dəhlizində maraqlıyıq. Digər qonşularla da biz gərginlikdə maraqlı deyilik. Amma, kim ki, bizə qarşı iddia irəli sürsə, biz onun cavabını hər zaman verə bilərik və dövlət başçısı cənab İlham Əliyev də dəfələrlə bunun cavabını verib. Elə son açıqlamalarının birində də dedi ki, hətta qarşı tərəf nə qədər güclü olur-olsun biz öz müstəqilliyimizdən vaz keçən deyilik. Bizim kiminlə münasibət qurmağımız bizim daxili işimizdir.

İran son vaxtlar artıq geri addım atır. Çünki, İrana dəstək verən də olmadı, Azərbaycan dəstəkləndi. Düşünürəm ki, artıq İran da anlamalıdır ki, Azərbaycana yaxşı qonşuluq münasibətləri hamının xeyrinədir. Təsadüfi deyil ki, İran Nazirliyi artıq Qarabağa qanunsuz yüklərin daşınması ilə bağlı şirkətlərə xəbərdarlıq edib. Bunu da müsbət addım saymaq olar və indi münasibətlər əvvəlki axarına qayıtmalı, əməkdaşlıq edilməli və iki ölkə bir-birinin daxili işlərinə qarışmamalıdır. Əgər bu baş verərsə, məncə qonşuluq münasibətlərində normallaşma prosesi daha da arta bilər", deyə Elxan Şahinoğlu bildirib.

***İnam Hacıyev***

# Qazaxda 8 Noyabr - Zəfər günü münasibəti ilə tədbir keçirilib

***Qazax Rayon Qeydiyyat şöbəsində 8 Noyabr - Zəfər günü münasibəti ilə tədbir keçirilib. Tədbir iştirakçıları öncə şəhidlərimizin xatirəsini bir dəqiqəlik sükutla yad ediblər. SİA-nın xəbərinə görə, tədbirdə çıxış edən natiqlər xalqımızın bir yumruq kimi Ali Baş Komandan İlham Əliyevin ətrafında sıx birləşməsindən, ölkə prezidentinin müharibə dönəmində, qələbənin qazanılmasında göstərdiyi inanılmaz qətiyyətindən danışıblar.***




Natiqlər, həmçinin Vətən müharibəsində şəhidlik zirvəsinə ucalan qəhrəman övladlarımızın 44 günlük müharibədə göstərdikləri qəhrəmanlıqlardan söz açıb, şəhidlərimizə Allahdan rəhmət, qazilərimizə isə şəfa diləyiblər.

Tədbirdə çıxış edən Qazax Rayon Qeydiyyat Şöbəsinin rəisi Məsumə Səmədova bildirib ki, XX əsrin 80-ci illərinin sonları 90-cı illərinin əvvəllərində Ermənistan Azərbaycanın tarixi torpaqlarına açıq formada ərazi iddiaları ilə çıxış etmiş və ölkəmizə qarşı hərbi təcavüzə başlamışdır. Həmin dövrdə Azərbaycanda hökm sürən hərc-mərclikdən istifadə edən Ermənistan torpaqlarımızın 20 faizini işğal etmiş, Ermənistanın həyata keçirdiyi etnik təmizləmə siyasəti nəticəsində 1 milyondan artıq soydaşlarımız öz doğma yurd-yuvasından didərgin düşmüşdür.

Məsumə Səmədova diqqətə çatdırıb ki, Azərbaycana qarşı hərbi təcavüz nəticələrinin aradan qaldırılması və BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsinin həyata keçirilməsi üzrə 30 ilə yaxın davam edən danışıqlar prosesi Ermənistanın destruktiv mövqeyinə görə nəticə verməmişdir. 2019-cu ildən etibarən isə Ermənistan hərbi-siyasi rəhbərliyinin bir-birinin ardınca verdiyi təxribatçı bəyanatlar və atdığı addımlar danışıqlar prosesini məqsədyönlü şəkildə tamamilə pozmuşdur. Nəhayət 2020-ci il Sentyabrın 27-də Ermənistanın Azərbaycana qaşı növbəti təcavüzün qarşısı alınaraq Ali baş komandanın tapşırığı ilə odumuz əks həmlə ilə hücuma keçmişdi. 44 gün davam edən və Dağlıq Qarabağ da daxil olmaqla işğal altındakı ərazilərimizin qaytarılması ilə nəticələnən Vətən Müharibəsi tariximizin ən parlaq səhifəsinə, Azərbaycan xalqının iftixar və qürur mənbəyinə çevrildi. Prezident İlham Əliyev 17 ildə həyata keçirdiyi siyasətin nəticəsində Azərbaycanı 30 ilə yaxın davam edən münaqişədə qalib tərəfə çevirdi. Ərazi bütövlüyümüzün birmənalı olaraq təsdiq edildi. Noyabrın 8-i xalqımızın tarixinə şanlı, qızıl hərflərlə yazıldı! 30 ildən sonra Prezidentimiz, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə sübuta yetirdik ki, bir qarış torpağımızı belə heç kəsə verən deyilik.

Məsumə Səmədova 1990-92-ci illərdə Qazax rayonun da müharibədən əziyyət çəkdiyini, rayonun Bağanıs Ayrım kəndində erməni vandallarının törədikləri cinayətdən danışıb.

# Şəhidlər qürur yerimiz, and yerimizdir!

## Şəhid Elməddin Namazovun ildönümü qeyd olunub





27 oktyabr 2021-ci il tarixdə Samux rayonunun Qovlarsarı kəndində anadan olan qəhrəman şəhidimiz Namazov Elməddin Nəsib oğlunun ildönümü qeyd edilib. İldönümü mərasimində Samux rayon İcra hakimiyyətinin başçısı Alı Qocayev, YAP Samux rayon təşkilatının sədri Gündüz Bayramov, hüquq-mühafizə orqanlarının rəhbərləri, şəhidin ailə üzvləri, dindarlar, ağsaqqallar və kənd ictimaiyyətinin nümayəndələri iştirak ediblər. Mərasimdə torpaqlarımızın işğaldan azad edilməsi uğrunda gedən hərbi əməliyyatlarda Elməddinin timsalında neçə-neçə igidimizin qarşıya qoyulan döyüş tapşırıqlarını şərəflə yerinə yetirərək əsl qəhrəmanlıq nümunələri sərgilədiyi bildirilib. Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin Sərəncamına əsasən Elməddin Namazov ölümündən sonra "Vətən uğrunda" medalı, "Döyüşdə fərqlənməyə görə" medalı və "Füzulinin azad olunmasına görə" medalı ilə təltif olunmuşdur. 44 günlük vətən müharibəsində şəxsi igidlik və şücaət göstərən Elməddin Namazov Qubadlı, Şuşa uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuşdur. Qəhrəman şəhidimiz 27 oktyabr 2020-ci ildə Gəncə Şəhərində Şəhidlər Xiyabanında dəfn edilmişdir.

***İlham***

## YAP Qazax rayon təşkilatının fəalları şəhidlərin məzarlarını ziyarət ediblər



Dünən YAP Qazax rayon təşkilatının fəalları, rayon ictimayyətinin nümayəndələri Vətən müharibəsi şəhidləri Nəsibov Nicat Səməd oğlunun, Daşdəmirov Elfak Eltun oğlunun və Həməşəyev Qismət Oruc oğlunun şəhid olmalarının ildönümləri ilə əlaqədar məzarlarını ziyarət ediblər. Mərasimdə şəhidlərin ruhuna dualar oxunub, məzarlarının üzərinə gül dəstələri düzülüb. Daha sonra YAP Qazax rayon təşkilatının fəalları şəhidlərin ailələrinə baş çəkib.

***Rəfiqə***

## Qobustan rayon Bədəlli kəndində şəhid Fədail Nadirovun məzarı ziyarət olunub






Qobustan rayon İcra Hakimiyyətinin başçısı Adil Məmmədov, millət vəkili Şahin Seyidzadə, Yeni Azərbaycan Partiyası Qobustan rayon təşkilatı sədrinin səlahiyyətlərini icra edən Füzuli Gülaliyev, hüquq-mühafizə orqanlarının rəhbərliyi və rayon ictimaiyyətinin nümayəndələri, Qobustan rayonu Bədəlli kəndindən şəhid olan "Vətən uğrunda" , "Füzulinin azad olunmasına görə" medalları ilə təltif olunmuş Nadirov Fədail Fərhad oğlunun məzarını ziyarət etmişlər Şəhidin məzarı önünə tər gül dəstələri düzüb, onun əziz xatirəsinə ehtiramlarını bildirib, ruhuna dualar oxunmuşdur.

Görüşdə şəhidin valideynləri oğlunun vətənpərvərlik ruhunda tərbiyə edildiyindən, hərbi xidmət zamanı göstərdiyi qəhrəmanlıqlardan danışıblar. Onun Azərbaycan Respublikasının Prezidenti Cənab İlham Əliyevin Sərəncamı ilə ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" medallarına layiq görüldüyünü qeyd ediblər. Şəhidin valideynləri göstərilən diqqət və qayğıya görə Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan Cənab İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya təşəkkürlərini bildiriblər.

***R. Kamalqızı***

## YAP Biləsuvar rayon təşkilatının əməkdaşları şəhid ailəsini ziyarət edib



27 oktyabr 2021- ci il tarixdə Yeni Azərbaycan Partiyası Biləsuvar rayon təşkilatının əməkdaşları və fəalları 44 günlük Vətən müharibəsində vətənimizin müdafiəsi uğrunda öz canından keçən Biləsuvar rayon Ağalıkənd kəndindən olan şəhid Məmmədov Elyar Elbəyi oğlunun ildönümü ilə əlaqədar olaraq ailəsini ziyarət ediblər. Daha sonra şəhidin məzarı ziyarət edilib və dərin ehtiramla yad edilərək məzarının üzərinə tər gül dəstələri düzübləR. Allah rəhmət eləsin!

***Rəfiqə***



## YAP Binəqədi rayon təşkilatında Vətən müharibəsinin qaziləri ilə görüş keçirilib





Yeni Azərbaycan Partiyası Binəqədi rayon təşkilatında Vətən müharibəsinin qaziləri ilə görüş keçirilib. Görüşdə əvvəlcə Azərbaycanın müstəqilliyi, suverenliyi və ərazi bütövlüyü uğrunda canını fəda etmiş qəhrəman oğul və qızlarımızın əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Daha sonra çıxış edən YAP Binəqədi rayon təşkilatının sədri Vüsar İsmayılov Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Silahlı Qüvvələrimizin 44 günlük Vətən müharibəsində əldə etdiyi tarixi zəfərdən bəhs edib. Ali Baş Komandan İlham Əliyevin uzaqgörən siyasəti, xalqımızın iradəsi və ordumuzun şücaəti nəticəsində 30 ilə yaxın işğal altında olan ərazilərimiz düşməndən azad edildi və bununla da Azərbaycanın ərazi bütövlüyü tam bərpa olundu. Dövlət-xalq-ordu həmrəyliyinin bütün dünyaya əsl nümunə olduğunu və bu birliyin heç bir zaman sarsılmayacağını vurğulayıb. Ölkəmizin ərazi bütövlüyünün təmin olunması uğrunda hərbi əməliyyatlarda əsgər və zabitlərimizin göstərdikləri şücaətlərin hər birimizdə sonsuz iftixar hissi doğurduğunu qeyd edib, bütün şəhidlərimizə Allahdan rəhmət, qazilərimizə can sağlığı diləyib.

Binəqədi rayon icra hakimiyyəti başçısı aparatının Vətən müharibəsi iştirakçıları və şəhid ailələri ilə işin təşkili şöbəsinin müdiri Səməndər Mənəfov isə çıxışında qəhrəman əsgər və zabitlərimizlə bütün xalqımızın qürur duyduğunu qeyd edib. O, özünün keçdiyi döyüş yolundan və xatirələrindən danışıb. Xalqımızın məğrurluğunun və qətiyyətinin, vətənpərvərliyinin bütün xalqlar üçün əsl örnək olduğunu söyləyib.Şəhid ailələrinin üzvlərinin, Vətən müharibəsində yaralanmış qazilərin sağlamlıqlarının bərpası, məşğulluqlarının təmini, həyat şəraitlərinin daha da yaxşılaşdırılması üçün göstərilən dəstək tədbirlərindən danışıb.

Sonda çıxış edən qazilər - Ceyhun Sədrayev, Mobil Əhmədzadə və Ceyhun Şıxıyev Vətən müharibəsi zamanı döyüş yoldaşlarının şücaət və qoxmazlıqlarından ətraflı danışıblar. Azərbaycan Ordusunun üstünlüyü ilə qazanılan tarixi zəfərimizdə Ermənistanın işğalçı ordusunun məhv edildiyini qeyd ediblər. Döyüş zamanı əsgər və zabitlərdə olan ruh yüksəkliyindən, eləcə də onlara ünvanlanan "Əsgərə məktub"ların əsl stimul olduğunu söyləyiblər. Xalqımızın qayğısını və dəstəyini daim hiss etdiklərini və tarixi torpaqlarımızın işğaldan azad edilməsinin ən müqəddəs missiyaları olduğunu qeyd ediblər. Dövlət başçısı Prezident İlham Əliyevin və Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva tərəfindən şəhid ailələrinə və qazilərə göstərilən diqqət və qayğıya görə minnətdarlıqlarını bildiriblər.

***ZÜMRÜD BAYRAMOVA***

# "5-ci kolon"na verilən "fas" komandası

## Yaxud, Qərb öz "uşaqlarını" necə yarı yolda qoydu?







***Türkiyə prezidenti Ərdoğanın həbs edilmiş Osman Kavala ilə bağlı sərt bəyanatı, daha dəqiq desək, onun Sorosun adamı olması ilə yanaşı, həm də xarici kəşfiyyat agenti qismində fəaliyyət göstərməsi, FETÖ-yə aid bağlantıları, eləcə də dövlət çevrilişinə cəhdi iştirakının sübuta yetirilərək ittiham edilməsi ətrafındakı fikirləri nədənsə Azərbaycanda və Avropa ölkələrində "Qərbin uşaqları" kimi tanınan və hətta bunu inkar etməyən siyasi həyasız cinahları da narahat etməyə başlatdı.***

Ümumiyyətlə, öz ölkələri qalsın bir tərəfdə, başqa ölkədə baş verən siyasi proseslərə, üstəlik, həmin ölkənin rəhbərliyinə, prezidentinə qarşı həyasızcasına dil uzadanların qırmızı xətti keçdikləri fakta çevrilib.







### Yenə də Xədicə İsmayıl, Anar Məmmədli, Seymur Həzi və s

Bəli, hər hansı ölkədəki siyasi proseslər barədə müəyyən fikirlər bildirmək olar, lakin həmin ölkənin daxili işlərinə burun dürtmək, "ağıl öyrətmək", nəyi isə tələb etmək artıq bütün hədləri aşmaq anlamını daşıyır, o da ola qardaş Türkiyə dövləti!

Məsələ ondadır ki, Xədicə İsmayıl, Anar Məmmədli, Seymur Həzi kimi Qərbin bəlli dairəsindən qidalananlar Ərdoğanın Kavala ilə bağlı sərt bəyanatını həzm edə bilməyiblər və söz yox ki, ağaları onlara dərhal "fas" komandası verib. Nədir ki, Ərdoğan öz ölkəsinin maraqlarını, təhlükəsizliyini və müstəqilliyinin toxunulmazlığını vurğulayıb. Misal üçün deyib ki, ABŞ, Kanada, Almaniya, Fransa, Finlandiya, Danimarka, Hollandiya, Norveç, Yeni Zelandiya səfirlərini Türkiyədə görmək istəmir, çünki casus Kavalaya görə onun ölkəsinə təzyiq etməyə cəhd göstərirlər. Xatırlayaq: "Mən XİN rəhbərinə tapşırıq verdim ki, dərhal on nəfər səfiri persona non qrata elan etsinlər".


Khadija Ismayil
1g

Öz vətəndaşına zülm etmək ayıbdır. Sənə xarici səfir "öz vətəndaşına zülm etmə" deyirsə, yenə də ayıb sənindir. Sən o səfiri buna görə ölkədən qovursansa, güclü deyilsən, biabırçılığa dözməyəcək qədər zəifsən.
Osman Kavala azadlıqda olmalıdır. Bunu qərb yox, Türkiyə istəməlidir hər şeydən öncə. Çünki ölkələri güclü qılan rəisin inadı yox, güclü, azad vətəndaşdır

Anar Mammadli
1g

Osman Kavala kimi bir insanın varlığı istənilən ölkə üçün milli dəyər, böyük qürurdur. Əfsus ki, Erdoğanın mürtəce daxili siyasəti üzündən bu adam haqsız yerə həbsdədir.

Seymur Hezi
22s

Osman Kavala məsələsi Türkiyə demokratiyası üçün, məhkəməsi üçün, siyasi gələcəyi üçün bir sınaq və kompassdır.

Seymur Hezi
24 Oktyabr, 00:49

Ərdoğan 10 aparıcı Qərb ölkəsinin səfirini arzuolunmaz şəxs kimi ölkədən qovmağı tapşırıb. İnsan haqları çağırışına görə. Dollar 15 tl olmasa yaxşıdı. Vaşinqton yəqin ki, bəzi reallıqları nəzərə alacaq, yoxsa Türkiyəyə çətin olacaq... Ankara reallıq hissini itirməməlidir.

Khadija Ismayil
1g

http://artigercek.com/haberler/orhan-kemal-cengiz-on-buyukelci-neden-kovuluyor

Kavalanın Fransa kəşfiyyatının hesabına təsis edilən fondu qondarma erməni soyqırımını tanıyır, Türkiyədə kürd muxtariyyətini tələb edir və FETÖ-yə bağlılığı ilə tanınır.

Gəlin, bu gün Qərbin və Azərbaycanda Qərb dairələrinin maraqlarından qidalanan "Qərb uşaqlarının" iddialarına qarşı faktlara əsaslanan, həmçinin geniş sferadan digər xatırlatmaları edək. Beləliklə, Osman Kavala kimdir və nəyə görə Qərb onun üçün bir qədər əndişə edir? Yuxarıda da qeyd etdiyimiz kimi, Kavala heç Türkiyə doğumlu da deyil və Parisdə anadan olub, üstəlik, Sorosun adamıdır. Sorosun isə kim olduğunu və hansı işlərlə məşğul olduğunu yenidən xatırlatmağa ehtiyac da yoxdur. Kavala sahibkarlıqla məşğul olur və bu pərdələmə altında təsis etdiyi "Anadolu Kultur AS" adlı mədəniyyət fonduna rəhbərlik edir. Fond Fransa kəşfiyyatının pulları hesabına yaradılıb. Məqsəd etnik və dini azlıqlarla iş aparmaq, qondarma erməni genosidinin tanınması istiqamətində layihələr həyata keçirmək, Türkiyədə kürd muxtariyyətini reallaşdırmaq və s.

Osman Kavala Fransadan Türkiyəyə uçarkən İstanbul hava limanında həbs edilib. İstanbul prokurorluğu onun barəsində həbs qətimkan tədbiri seçib və bunun üçün order imzalayıb. Kavalaya 2016-cı ildə dövlət çevrilişinə cəhd ittihamı irəli sürülüb. Beləliklə, Qərbin Kavala vasitəsi ilə həyata keçirmək istədiyi planı reallaşmamış qaldı.

### Nədən əndişələnirlər?

Bütün bunlardan sonra Azərbaycandakı "5-ci kolon"un anti-Türkiyə, Ərdoğan əleyhinə münasibəti nədən irəli gəlir? Və ya Türkiyə prezidenti Rəcəb Tayyip Ərdoğana AXCP-nin, onun rəhbərliyinin, xarici donor təşkilatlarının daimi müştərisi olan Xədicə İsmayılın, Anar Məmmədlinin nifrəti hansı məqsədlərdən irəli gəlir? Bəlkə 44 günlük Vətən müharibəsində Türkiyənin qardaşı Azərbaycana həm siyasi, həm də hərbi dəstək göstərdiyinə görəmi Ərdoğana qarşı bu qədər nifrət nümayiş etdirirlər? Və yaxud, Türkiyənin Azərbaycanın işğaldan azad edilmiş ərazilərində iqtisadi dəstəyindən, Zəngəzur dəhlizinin və Qarabağın açarının iki qardaş ölkənin əlində olmasından əndişə edirlər?

Ya da Ermənistan ordusunu məhv edən, rüsvayçı vəziyyətdə qaçmağa məcbur edən "Bayrakdarları" Azərbaycanın ixtiyarına verdiyinə görəmi onlar bundan narahat olur və radikallaşıblar və mədələrindən gələn iyrənc ifadələrini ağızlarına gətirib, yenidən udurlar?

### İndi növbə onlara "fas" komandası verən sorosçu təşkilatların yaxalarından yapışıb nəyə görə onları pis vəziyyətdə qoymalarının hesabının soruşulmasındadır

Bəli, məhz udurlar, çünki onlara "fas" komandası verən Qərb cənab Ərdoğanın sərt bəyanatından və qəti qərarından sonra geriyə addım ataraq onları, sözün əsl mənasında, "oçkoda" qoydu. Belə ki, həmin on ölkənin səfirləri daha əvvəl Osman Kavalanın azadlığa buraxılması yönündə verdikləri bəyanatlarını geri alıblar və sözün əsl mənasında, "qələt elədik" deyiblər. Onlar başqa ölkələrin daxili işlərinə müdaxilə etməməyi əks etdirən Vyana razılaşmasının 41-ci bəndinə sadiq qaldıqlarını bəyan edərək üzr istəyiblər. Əslində bu, Qərbin nə qədər yazıq bir duruma düşməsinin bariz sübutudur. Lakin ən əsası, özlərini Kavalaya görə ülgücləyənlər, saç-başlarını yolaraq üzlərini cıranlar - Xədicə İsmayıl, Anar Məmmədli, Seymur Həzi və başqaları rüsvay oldular, əlbəttə ki, rüsvay olmağa üzləri qalıbsa. İndi növbə onlara "fas" komandası verən sorosçu təşkilatların yaxalarından yapışıb nəyə görə onları pis vəziyyətdə qoymalarının hesabının soruşulmasındadır ki, "Qərbin uşaqları" bunu da etməyəcəklər. Çünki pul-paraları kəsilə bilər. Ona görə də belələrinin üzlərinə tüpürüləndə belə, deyirlər ki, "yağış yağır..."

**Rövşən RƏSULOV**

TƏRS BAXIŞ

# Üçtərəfli görüş: baş tutarsa nə gözlənilir?



**Pavel Felqenqauer: ”Ermənistanda heç kim yerdə qalan əraziləri Azərbaycana təhvil verməyə razı deyil”**

Son günlər istər Azərbaycan, istər Rusiya, istərsə də Ermənistan mediasında noyabrın ilk ongünlüyündə Vladimir Putin, İlham Əliyev və Nikol Paşinyan - üçtərəfli görüşü barədə müxtəlif fikirlər səsləndirilməkdə, nəticələrə gəlinməkdədir. Ehtimal olan görüşdə müzakirə olunması gözlənilən iki məsələnin gündəmə çıxarılacağı gözlənilir və bildirilir ki, görüş baş tutarsa sərhədlərin delimitasiyası, eləcə də regionda nəqliyyat dəhlizinin açılması əsas mövzu kimi götürüləcək. Lakin bildiyimiz kimi, bütün bunlar sadəcə ehtimallardır və üçtərəfli görüş haqqında heç bir rəsmi informasiya mövcud deyil.

”Çətin ki, anons edilən üçtərəfli görüşdə hər hansı prisnipial hadisə baş versin”. SİA xəbər verir ki, bu barədə caliber informasiya analitik mərkəzinə Rusiyanın hərbi eksperti, politoloq Pavel Felqenqauer danışıb. Onun sözlərinə görə, kommunikasiyaların blokadadan çıxarılması, həmçinin sərhədlərin delitimasiyası və demarkasiyası razılaşmaları əvvəllər də olub.

**”Əgər əlavə razılaşma imzalanarsa, tərəflərin hər biri onu özünə görə nəticələndirəcək”**

”Baş tutacağı halda üçtərəfli görüşdə həmin razılaşmalar yenidən təsdiq olunacaq. Əslində problem onda deyil ki, razılaşmalar yoxdur, axı heç kim sərhədlərin demarkasiyasından imtina etmir. Problem ondadır ki, demarkasiya konkrert ərazidə və praktiki cəhətdən necə keçirilməlidir.

Kommunikasiyaların blokadadan çıxarılmasına gələndə isə orada da prinsipial razılıq var, amma yenə də hər şey onu necə etmək məsələsinə söykənir. Hər halda görüş keçirilərsə bu, situasiyanı fəallaşdıracaq, ancaq hesab etmirəm ki, sammitdən sonra hər şey əla olacaq və hamı razılaşmanın şərtlərinə əməl edəcək. Hətta əgər əlavə razılaşma imzalanarsa, tərəflərin hər biri onu özünə görə nəticələndirəcək. Mümkün olan isə budur ki, mövcud status-kvonun saxlanılması kifayət qədər yüksəkdir”, ekspert bildirib.

**”Vəhşi mina sahələri var ki, onların xəritələri mövcud deyil”**

Felqenqauer rusiya sülhməramlılarının müvəqqəti yerləşdikləri Xankəndinin və Azərbaycanın digər ərazilərinin gələcək taleyi ilə bağlı da fikir bildirib. O, xatırladıb ki, bu məsələdə hətta prinsipial razılıq da yoxdur.

”Ermənistanda heç kim yerdə qalan əraziləri Azərbaycana təhvil verməyə razı deyil. Rusiya göründüyü kimi status-kvonun dondurulmasını və belə vəziyyətdə daha 5-10 il yaşamağı daha məqbul hesab edir ki, sonra görək nə olur. Görünür Azərbaycan da situasiyanı gərginləşdirməyə hazır deyil, çünki azad edilmiş ərazilərin öyrənilməsi üçün bəzi problemlər mövcuddur. Mən əhalinin geri qayıtması, təsərrüfat işlərinin bərpası kimi problemləri nəzərdə tuturam. Aydın görünür ki, bütün bunlardan baş çıxarmaq üçün illər lazım olacaq. Azərbaycan Ermənistandan konkret şeyləri tələb edir - minalanmış ərazilərin xəritələrini. Bu ərazilərdə çox yəniq ki, vəhşi mina sahələri də var, hansı ki, əvvəlcə yerləşdiriblər, sonra da yerlərini müəyyən etməyə unudublar. Belə sahələr üçün adekvat xəritələr mövcud deyil, ona görə ki, mina sahələrinə də digər sahələr kimi xdmət etmək lazımdır. Başqa sözlə ifadə etsək hər fəaliyyətə hazır olan mina sahəsinə heç olmasa uarım ildə bir dəfə minaaxratanlar çıxırlar. Onu yoxlayır, köhnə minaları yeniləri ilə əvəzləyirlər. Əgər bu daimi mina sahələridirsə, həmin sahələr işlək vəziyyətdə saxlanılır. Mən belələrini Holan təpələrində görmüşəm, hansı ki oradan İsrailin müdafiə xətti keçir. İsrailli hərbi qulluqçu mənə harada hansı minaların yerləşdirildiyini anlatdı. Bu, xidmət göstərilən mina sahələridir.

Eləcə də vəhşi mina sahələri var, oraları tikanlı məftillərlə sarıb və tərk ediblər. Orada həm partlaya bilər, həm də partlamaya bilər, hansı mina dəqiq olaraq harada basdırılıb, bu da aydın deyil. Həmin Holan yüksəkliklərində Suriyanın da mina sahələri var. Haliley dənizi tərəfindən ani yoxuş var ki, orada Suriyanın müdafiə xətti var idi və onu israillilər 1967-ci ildə almışdılar. Onlar orada bir neçə yol salmışdılar, yerdə qalan əraziləri isə atmışdılar. He kim orada nə olduğunu bilmir. Bu, vəhşi minsa sahələridir, ora xidmət edilən sahələrdən çox təhlükəlidir. Qarabağda belə xidmət edilməmiş ərazilər müxtəlifdir və çoxdur. Mümkündür ki, bir çox hallarda heç dəqiq xəritələr də yoxdur. Münaqişənin uzunmmüddətli olduğunu da nəzərə alsaq, kimin nə vaxt, harada nə basdırdığını da anlamaq çətindir. Ona görə də minalardan təmizləmə ilə bağlı problemlər bu ərazilərdə çox ciddidir və onlar illərlə qalmaqdadır. İnsanları belə ərazilərə köçürmək mümkün deyil, çünki təhlükəlidir. Bu, Azərbaycan üçün hazırda mövcud olan çox mühüm bir problemdir. Zəngəzur dəhlizinin blokadadan çıxarılması da Azərbaycan üçün problemdir. Bu, konkrert məsələlərdir ki, İrəvan buna görə nə isə almaq istəyir”, ekspert bildirib.

Pavel Felqenqauer sonda əlavə edib ki, hazırkı vaxtda situasiyanın prinsipial dəyişikliklərini görmür.

”Düşünürəm ki, Qarabağ məsələsi uzunmüddətli qutuya qoyulacaq. Əgər yaxşı nəticələrə doğru aparacaq hansısa pozitiv həllər olacaqsa, bu fərdi məsələlər üzrə həllər ola bilər. Çox yəqin ki, görüşdə hər-hansı bəyannamələr ya da bu ruhda olan nələrsə qəbul olunacaq. Ancaq mən Qarabağ məsələsini birdəfəlik bağlayan və situasiyanı dəyişmək üçün prinsipial vəziyyəti görmürəm. Mümkündür ki, yalnız palliativ qərarlar verilsin”, Felqenqauer rezümə edib.

**Rövşən RƏSULOV**

## PARTİYA SƏDRİ:

# “Dağıdıcı müxalifət suyu bulandırmaq istəyir”

*“Azərbaycan Respublikasının Konstitusiyasına görə, insanlar mitinqlər, küçə yürüşləri keçirə bilərlər. Düzdür, qiymət artımı ilə bağlı müəyyən narazılıqlar var, amma həmin qüvvələrin Zəfər bayramına yaxın ortalığa düşərək aksiyalar keçirmək istəkləri başadüşülən bir hal deyil".*

Bunu SİA-ya açıqlamasında Təkamül Partiyasının sədri Teyyub Qənioğlu deyib.

Onun sözlərinə görə, millətimiz, bütün dünya azərbaycanlıları olaraq çox böyük coşqu ilə Zəfər bayramına hazırlaşdığımız bir ərəfədə dağıdıcı müxalifətin suyu bulandırmaq istəyi onların kənar qüvvələrdən sifariş aldıqları anlamı yaradır: ”Bu, böyük bir Zəfərdir və Zəfər bayramı adı buna təsadüfi verilməyib. Yəni, 30 il işğal altında qalan ərazilərin qısa müddət ərzində azad edilməsi doğurdan da çox böyük qələbə və Zəfərdir. Azərbaycan dövlətinin əldə etdiyi bu qələbəni həzm edə bilməyən həm Şimalda, həm Cənubda, həm də Qərbdə kifayət qədər qüvvələr var. Demək olan ki, o qüvvələr Azərbaycan dövlətinin əldə etdiyi bu möhtəşəm qələbəyə kölgə salmaq üçün əllərindən gələni edirlər. Amma, onların nə istəməsindən və etməsindən asılı olmayaraq, onlar heç vaxtı bu parlaq qələbəyə kölgə sala bilməyəcəklər. Bu baxımdan, Zəfər bayramı ərəfəsində ölkə daxilində olan bəzi qüvvələrin sosial şəbəkələrdə aksiyalara çağırışlar etməsi və fikirlər səsləndirmələri yersizdir. Çünki hazırkı mərhələdə aksiyaların keçirilməsinə ehtiyac yoxdur. Yaxşı olardı ki, AXCP, ”Milli Şura” kimi müxalif qüvvələr bu cür hərəkətlərindən əl çəksin”.

**Gülyana**

# Əli Kərimli Fuad Qəhrəmanlının qızına sahib çıxmadı



AXCP sədri Əli Kərimlinin keçmiş müavini Fuad Qəhrəmanlının qızı Sanayla bağlı baş vermiş və özündə bir sıra arzuolunmaz halları əks etdirən, xüsusilə milli və mənəvi dəyərlərimizə sığışmayan hadisə istər-istəməz ictimailəşsə də, AXCP və ”Milli Şura”dan səs çıxmadı. Yəni danışanda ağızlarına ”çullu dovşanlar” yerləşməyən Əli Kərimli, Gültəkin Hacıbəyli, Cəmil Həsənli (hərgah onun ümumiyyətlə danışmağa üzü yoxdur) və başqaları ağızlarına su alıb-susmağa üstünlük verdilər.

Məsələn, zaman-zaman qadın hüquqlarından bol-bol dəm vuran Əli Kərimli və ətrafındakı başbilənlər yığnağı Fuad Qəhrəmanlının qızına sahib çıxmadılar, onu müdafiə etmədilər. Hələ bu da azmış kimi, AXCP trolları Sanayı qınadı, anası Zümrüd Yağmuru isə təhqirləri ilə az qala linç etdilər.

Söz yox ki, cəbhəçi trollar bu hücumlarını birbaşa Əli Kərimlinin tapşırığı ilə reallaşdırıblar.

**Fuad Qəhrəmanlı qızının başına gələnlərə etinasız yanaşdı**

Bu barədə faktı isə ”Meydan tv”yə müsahibəsində danışan Fuad Qəhrəmanlının keçmiş həyat yoldaşı, təcavüzə uğramış Sunayın anası Zümrüd Yağmur bir daha etiraf edib ki, AXCP-nin trolları ona hücumlar, təhqir, hətta zəng edib təhdid də ediblər: ”Açığı belə bir ağır vəziyyətdə Fuad Qəhrəmanlının bəzənib-düzənib Emil Səlimin toyuna gedəcəyini də gözləmirdik. AXCP də sağ olmasın ki, gözləntilərimizi doğrultdu. Bizə qarşı çox iyrənc bir kampaniya apardılar... Mən həm də Cəmil Həsənliyə acıdım. Bilirsinizmi niyə? Çünki Cəmil Həsənli 16 yaşlı uşağı müdafiə etməkdə acizlik nümayiş etdirdi. Cəmil Həsənli dilinə gətirdiyi dəyərlərin arxasında dura bilmədi. Ona görə ona acıyıram”.

Zümrüd Yağmur xüsusilə diqqətə çatdırıb ki, Cəmi Həsənlinin qızının məlum videoları ictimailəşəndə o və qızı Sanay ”Milli Şura” sədrinin ailəsini müdafiə edirdi. Lakin Cəmil Həsənli Sanayın məsələsində eyni mövqeyi nümayiş etdirmədi. Bu isə bir daha bu ünsürlərin kim olduğunu isbatladı və bu dəfə daha qabarıq fonda.

**Rövşən RƏSULOV**

# “Bu, hazırda Ermənistan üçün tarixi bir fürsətdir”



“44 günlük Vətən müharibəsində tarixi Zəfəri ilə Azərbaycan torpaqlarını erməni işğalından azad etdikdən sonra Cənubi Qafqazda tamamilə yeni vəziyyət yaranıb. Bölgədə nəhayət dayanıqlı sülhü, təhlükəsizliyi təmin etmək üçün imkanlar əldə edilib. Hazırda işğaldan azad edilmiş ərazilərdə bərpa-quruculuq işlərini sürətlə davam etdirən dövlətimiz əslində öz güvənini artırmaqla yanaşı qonşu ölkələrin də sülh və əmin-amanlıq şəraitində yaşaması, iqtisadi dirçəlişə nail olmaları üçün geniş imkanlar təklif edir”. Bu fikirləri SİA-ya açıqlamasında Milli Məclisin deputatı Sevil Mikayılova deyib.

Deputatın sözlərinə görə, Azərbaycanın təklifini düzgün dəyərləndirmək hazırda Ermənistan üçün tarixi bir fürsətdir, beləki öz işğalçı siyasəti ucbatından uzun illər iqtisadi blokadada olan Ermənistan nəhayət bu blokadadan çıxmaq, qonşu ölkələrlə normal münasibətlər formalaşdırmaq imkanı əldə edib: ”Azərbaycan öz ali məqsədinə çatıb, torpaqlarını işğaldan azad edərək öz ərazi bütövlüyünü təmin edib. İndi Ermənistan Azərbaycanın ərazi bütövlüyünü tanıdığını bəyan etməli, həm Azərbaycan, həm də Türkiyəyə qarşı əsassız ərazi iddialarını birdəfəlik unudub, öz qonşuları ilə normnal əlaqələr qurmağa çalışmalıdır. Ermənistan bu yolda beynəlxalq hüququn bütün müddəalarına hörmət göstərilməli, işğalçılıq siyasətinin heç bir millətə fayda vermədiyini dərk edərək səmimi iradə ortaya qoyulmalıdır”.

S,Mikayılova vurğulayıb ki, Türkiyə Prezidenti Rəcəp Tayyip Ərdoğanın oktyabrın 26da Füzüli hava limanın açılışı və Zəngəzur dəhlizinin təməlqoyma mərasimindən sonra bəyan etdiyi kimi ”Ermənistan Azərbaycanla münasibətlərində səmimi iradə ortaya qoyarsa, Türkiyə ilə də münasibətlərin normallaşması üçün əngəl qalmayacaq”: ”Ermənistanın Azərbaycana və Türkiyəyə qarşı olan ərazi iddialarından birdəfəlik əl çəkməli, öz konstitusiyasında və hərbi doktrinasında bu cür iddiaları ifadə edən müddəalara dəyişikliklər etməlidir. Ermənistan anlamalıdır ki, dövlət sərhədləri müvafiq BMT sənədləri ilə təsbitini tapıb. Bu sərhədlərin pozulmasına istənilən cəhd beynəlxalq hüququn kobud pozulmasıdır, belə ki dövlətlərin suveren ərazisi toxunulmazdır. Ermənistan

**Aysel Məmmədova**

# Rus politoloq: "Qarabağ nizamlanması İrəvanın günahından sıfır nöqtəsində qalıb"

***İqor Korotçenko: "Zəngəzur nəqliyyat dəhlizi Kremlin siyasətidir və bu məsələnin qarşısını almaq Ermənistanın Rusiyaya qarşı çıxmasıdır"***



Rus politoloq, "Milli Müdafiə" jurnalının baş redaktoru İqor Korotçenko "Moskva-Baku" platformasına müsahibəsində Qarabağ nizamlanması üzrə son sammitdən və yüksək səviyyəli görüşlərdən gözlənilənlər, həmçinin Rusiya, Azərbaycan və Ermənistan liderlərinin imzaladığı üçtərəfli Bəyanatın yenidən nəzərdən keçirilməsi haqqında təkliflərlə bağlı fikirlərini açıqlayıb. Müsahibəni oxucularımıza təqdim edirik.

**- Minskdə Rusiya, Azərbaycan və Ermənistan XİN rəhbərlərinin üçtərəfli görüşü, Rusiya Xarici İşlər Nazirliyinin bəyanatına əsasən, "üçtərəfli sazişlərin icrasına baxış" keçirilib və Sergey Lavrov azərbaycanlı həmkarı ilə görüşdə deyib ki, həll edilməli olan məsələlər var. Tərəflər hansı məsələləri müzakirə ediblər, nəyə gəliblər və Moskvanın Qarabağ nizamlanmasında vasitəçi kimi sazişin icrasında operativlik nümayiş etdirməsinin son dərəcə vacib olduğunu deyə bilərikmi?**

- Rusiya üçtərəfli bəyanatın həyata keçirilməsində maraqlıdır. Nəzərə alsaq ki, sənədin hazırlanması Vladimir Putinin şəxsi nəzarəti altında baş tutub. Və deyə bilərik ki, bu, əslində onun siyasi layihəsidir.

Amma üçtərəfli bəyanatın imzalanmasından bir il sonra onun icra dərəcəsinin çox aşağı olduğunu deyə bilərik. Əslində, ərazilərin bir hissəsinin Azərbaycana qaytarılması ilə yanaşı, yalnız Rusiya sülhməramlılarının yerləşdirilməsi ilə bağlı bənd yerinə yetirilib. Onların yerləşdirilməsi vəziyyəti sabitləşdirdi, lakin təəssüf ki, biz Ermənistanın bütün digər məsələləri blokadaya aldığını görürük.

Azərbaycan prezidenti İlham Əliyev və Ermənistanın baş naziri Nikol Paşinyan Rusiya sülhməramlılarının fəaliyyətini yüksək qiymətləndiriblər. Putin də onları yüksək qiymətləndirib. Ermənistanın üçtərəfli Bəyanatın əsas bəndlərini yerinə yetirməməsi rəsmi İrəvanın anti-Rusiya mövqeyi kimi dəyərləndirilə bilər.

Üçtərəfli Bəyanat yerinə yetirilmir. Azərbaycanın Qarabağ bölgəsi ərazisində erməni qeyri-qanuni silahlı birləşmələrinin olması məsələsi hələ də həllini tapmayıb, nəqliyyat və iqtisadi kommunikasiyaların blokunun açılması məsələsində irəliləyiş yoxdur. Üstəlik, buna Ermənistanın mina sahələrinin xəritələrini ötürməməsini də əlavə edə bilərik. Hazırda sərhədlərin demarkasiyası və delimitasiyası prosesi gedir. Aydındır ki, üçtərəfli görüşdə məhz bu hələ də həllini tapmamış məsələlər müzakirə olunub.

Amma İrəvan həmişə olduğu kimi, siyasi boşboğazlıqla məşğul olub və etməkdə də davam edir. Yerevan diqqətini üçtərəfli Bəyanatın əsas müddəalarının erməncə şərhinə yönəldib. Ona görə də Ermənistana təzyiq etmədən İrəvanın üzərinə götürdüyü öhdəlikləri yerinə yetirəcəyini gözləmək çətindir.

Bu görüş, gözləntilərə baxmayaraq, əsasən ritual, protokol xarakterli idi- məhz rəsmi İrəvanın qeyri-konstruktiv mövqeyinə görə.

Deyək ki, tərəflər bəzi humanitar addımlar barədə razılığa gəliblər. Amma hələ ki, üçtərəfli Bəyanatın həyata keçirilməməsi fonunda bu, çox azdır. Hələlik Ermənistan sırf öz problemlərini həll edir.

Təəssüf ki, faktiki olaraq bir il ərzində Üçtərəfli Bəyanatın həyata keçirilməsində heç bir irəliləyiş əldə olunmayıb, o, demək olar ki, sıfır nöqtəsində qalıb. Bir il əvvəl düşmüş olduğumuz vəziyyətdəyik. Hərbi məğlubiyyət sindromundan qurtulan Ermənistan kifayət qədər təxribatçı siyasət yürütməyə başladı. Bundan əlavə, erməni lobbisi Üçtərəfli Bəyanatın həyata keçirilməsinə mane olan son dərəcə əhəmiyyətli faktordur. Bu amilin təsirinin gücü hətta İrəvanın üçtərəfli Bəyanata əməl etmək istəməməsi faktorundan da üstündür. Erməni lobbiçiləri Rusiyada fəal işləyir, sazişin mənaları, məzmunu, əsas tezisləri ilə bağlı öz şərhlərini verməyə çalışırlar. Onun yenidən nəzərdən keçirilməsi prosesinə başlamaq cəhdləri var. Erməni lobbisinin üçtərəfli bəyanatın müddəalarının icrasını ləngitmək imkanı var. Onun informasiya sahəsində aktiv fəaliyyətini görürük. Üçtərəfli Bəyanatın əsaslarını aşındırmaq üçün aktiv iş aparılır.



**- Moskvanın Ermənistanın hələ də üçtərəfli Bəyanatın dəqiq icrası yolu ilə getməsini təmin etmək üçün hər hansı təsir aləti varmı?**

- Yalnız bir təsir aləti ola bilər- siyasi iradə. Üstəlik, üçtərəfli Bəyanatın həyata keçirilməsi üçün "yol xəritəsi"nin mahiyyətini və mənasını dərk etmək üçün ekspert icmasının fəal analitik işi. Buna qarşı çıxmaq olar.

**- Rusiya, Azərbaycan və Ermənistan liderlərinin üçtərəfli formatı Qarabağ nizamlanmasında öz effektivliyini göstərdi. Liderlərin yeni görüşü keçən il olduğu kimi bütün çətin məsələləri həll edə bilərmi?**

- Keçən il fərqli, kritik vəziyyət yaranmışdı. Hesab edirəm ki, indi İrəvana əsasən iqtisadi təzyiq lazımdır. Biz İrəvanın mərkəzində ən son rusofobik çaşqınlıqları- "Sasna Tsrer" yürüşünü görürük. Bu, rusofobların Rusiyanın ən yüksək vəzifəli şəxslərini birbaşa təhqir edən yürüşü idi. Bunun arxasında nə olduğunu başa düşürük. Cənab Paşinyana sual: İrəvanda rusofobik nümayişi yatırmaq üçün niyə polisdən və təhlükəsizlik qüvvələrindən istifadə etmədi? Cənab Paşinyan harada idi? Qəhvə içirdi? Rusiyanın Ermənistanla bağlı illüziyası olmamalıdır. Ermənistan tərəfdaşların heç birindən artıq deyil. Formal olaraq müttəfiqdir. Amma əslində, situasiya tərəfdaşıdır. Rusiya isə Ermənistanla münasibətləri yalnız Rusiyanın milli maraqları əsasında qurmalıdır. Ermənistanın milli maraqları Rusiya üçün hətta ikinci dərəcəli də deyil, üçüncü dərəcəli olmalıdır.

Biz Ermənistanda baş verənlərə Ermənistandakı siyasi elitanın Rusiyaya münasibəti prizmasından baxırıq. Qoy qardaş xristian xalqı ilə bağlı bütün bu mantralar daxili siyasi istehlaka buraxılsın. Rusiya ilə Ermənistan arasında bütün təmaslar, o cümlədən iqtisadi sahədə praqmatizmə- qazın bazar qiymətlərinə, verilən kreditlərin bazar şərtlərinə əsaslanmalıdır. Ermənistana kreditlər yalnız qızıl-valyuta ehtiyatlarının təminatı əsasında verilməlidir. Və əgər borcları qaytarmaq iqtidarında deyilsə, o zaman qızıl-valyuta resursları ilə ödəməlidir.

Moskvanın kifayət qədər sərt mövqeyi olmalıdır- rusofobları qidalandırmaq lazım deyil, Ermənistanda isə rusofobiyanın növbəti dalğası var. Paşinyan tamamilə nominal fiqurdur. Bu gün- o, sabah- başqası. Ermənistan Rusiyadan resursları sovurmaq istəyir, əvəzində mantralardan başqa heç nə vermir. Ermənistan təkbaşına heç nə etmək iqtidarında deyil. Ermənistan hərbi əməliyyatlar teatrında baş verən dəyişikliklər, yeni silah və hərbi texnika növlərinin meydana çıxması səbəbindən Rusiya üçün əvvəlki strateji əhəmiyyətini itirib.

Bu gün regionda əsas çəkindirici "Kalibr" qanadlı raketləri olan Xəzər donanmasıdır. Erməni elitası Ağrı dağından aşağı- torpağa endirilməlidir ki, Rusiya üçün şabalıdı ocaqdan çıxarsınlar, əksinə yox.

Biz başqalarından asılı vəziyyətdə olan, Moskvadan nəsə almaq istəyən, əvəzində heç nə verməyən bütün ölkələrə qarşı sərt mövqe tutmalıyıq.

Postsovet məkanının özünü təmin edən ölkələri var- Qazaxıstan və Azərbaycan heç nə istəməyib, müstəqil, qarşılıqlı faydalı siyasət qururlar. Rusiya hesabına, Rusiya vergi ödəyicilərinin hesabına iqtisadi planda müxtəlif güzəştlər almaq istəyənlər isə ilk növbədə öz faydalılığını əməli ilə sübut etməlidirlər.

Ermənistanın maliyyə imkanları yoxdursa, bizə siyasətlə ödəsin. Amerika səfirliyinin sayı azalsın, Krımı açıq şəkildə Rusiya ərazisi kimi tanısın, amerikalıların, fransızların və digər dövlətlərin maliyyələşdirdiyi bütün qeyri-hökumət təşkilatlarını bağlasın. Və onu daim qidalandırmaq və İrəvanın hansısa hərbi ambisiyalarını qızışdırmaq indiki şəraitdə Moskvaya tamamilə lazımsızdır.

**- Kremldə Putinlə Paşinyan arasında keçirilən görüşdə Ermənistanın baş nazirinin ifadəsi diqqət çəkdi. Ermənistan hökumətinin başçısı Putinə sözün əsl mənasında bunları deyib: "Gördüyünüz kimi, Dağlıq Qarabağ münaqişəsi həll olunmamış və bu aydındır". Amma Putin bunu demədi...**

- Putin Paşinyanı səmimi, hörmətlə qarşıladı. Sözün əsl mənasında bir həftə keçməmiş biz İrəvanın mərkəzində rəzil rusofob yürüşünün şahidi olduq. Buna görə məsuliyyəti Ermənistan daşıyır. Paşinyanın istəklər siyahısı Kremlin mövqeyi kimi qəbul edilməməlidir. Üçtərəfli Bəyanatda Kremlin mövqeyi aydın ifadə olunub. Hər şey aydın şəkildə təsvir olunub: qanunsuz erməni silahlı birləşmələrinin çıxarılması, kommunikasiyaların açılması. Bu, Kremlin rəsmi mövqeyidir. Paşinyanın Putinin sözlərini şərh etmək istəməsi isə... burada erməni lobbiçilərinin işlədiyini başa düşmək olar. Putinin mövqeyi bəllidir, bu, üçtərəfli bəyanatda öz əksini tapıb, qoy yenidən oxusunlar.

**- Son həftələrdə Azərbaycanla Ermənistanın yaxınlaşması prosesi ilə bağlı bir neçə siqnal gördük. Beləliklə, Ermənistan öz hava məkanını Azərbaycanın əsas hissəsi və Naxçıvana hissəsi arasında uçuşlar üçün açdı. Azərbaycan və Ermənistan deputatlarının görüşü keçirilib, "erməni əsilli Azərbaycan vətəndaşlarının inteqrasiyası" üçün Azərbaycanda erməni dili kursları təşkil olunacaq. Bundan əlavə, ötən həftə Moskvada Moskva və Bütün Rusiyanın Patriarxı Kirillin təşəbbüsü ilə Rusiya, Azərbaycan və Ermənistanın dini liderlərinin üçtərəfli görüşü keçirilib...**

- Dini liderlərin görüşü patriarx Kirilllə görüşdə "Azərbaycanın qanlı, fəlakətli təcavüzü" haqda danışan II Qareginin sayəsində uğursuz başa çatdı. Bu, katalikosun bir neçə dəfə səsləndirdiyi mövqedir. Bu dini lider barışmalı, sülhə çağırmalı olduğu halda, Azərbaycanın ünvanına sərt bəyanatlar verərək, Qarabağ münaqişəsinin atəşinə dəfələrlə yağ tökdü. Bu həm də ona işarədir ki, kilsələrarası dialoqda biz Ermənistanın mövcud reallıqlarla hesablaşmaq istəmədiyini görürük. Cavab, görünür, Rus Pravoslav Kilsəsinin Ermənistanda öz yeparxiyasını yaratmaq qərarı idi, hansı ki, faktiki olaraq Erməni Apostol Kilsəsinin sahəsinə daxil olur.

Ermənistanın Azərbaycanın uçuşları üçün hava məkanını açması faktı... Açdılar və bu yaxşıdır. Zəngəzur dəhlizi də açılsın. Bu müsbət siqnal olacaq. Zəngəzur nəqliyyat dəhlizi Kremlin siyasətidir və bu məsələnin qarşısını almaq Ermənistanın Kremlin siyasətinə qarşı çıxmasıdır. Onu açanda müsbət siqnal olacaq, amma hələlik, bağışlayın, bla bla bla... İndiyə qədər "müsbət" siqnallara şübhə ilə yanaşıram. Əsas odur ki, yerinə yetirilmir, eyni sərt bəyanatlar ənənəvi olaraq prosesi dayandırmaqdan xeyir götürən Ermənistandan da eşidilir.

**- Və Nikol Paşinyanın MDB sammitində Ermənistanın Azərbaycan ərazisindən Rusiya Federasiyası və İranla, Azərbaycanın isə Ermənistan vasitəsilə Naxçıvan anklavı ilə əlaqə quracağı barədə bəyanatı...**

- Ermənistan Üçtərəfli Bəyanatın konkret icrasına başlayana qədər siz istədiyinizi deyə bilərsiniz. Bu bəyanatların heç bir nəticəsi yoxdur.

**- Bəs Moskvanın Azərbaycan və Ermənistan arasında daimi qarşılıqlı fəaliyyət platforması yaratması necədir?**

- Hesab edirəm ki, ilk növbədə, ekspert və analitik sahədə edilməlidir. Qeyri-hökumət təşkilatları və beyin mərkəzləri vasitəsilə. Düşünürəm ki, ilk növbədə ekspert dialoquna ehtiyac var. Ekspertlər öz fikirlərində daha sərbəstdirlər və siyasətçilərə yol xəritəsi təklif edə bilərlər.

***Tərcümə - Elçin Bayramlı***

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə 44 günlük "Vətən Müharibəsi"ndə qazanılmış tarixi qələbə, Ermənistan tərəfindən törədilmiş sülh və insanlıq əleyhinə cinayətlər, habelə müharibə cinayətləri ilə bağlı həqiqətlərin dünya ictimaiyyətinəçatdırılması" istiqaməti çərçivəsində hazırlanıb.*

SON SƏHİFƏ

Səs

28 oktyabr
2021-ci il

# Xəbərdarlıq: Soyuq aylarda ürək tutmaları iki dəfə artır

***Soyuq və şaxtalı havalar ürək-damar xəstəlikləri olan pasiyentlər üçün əlverişsiz və təhlükəli sayılır. Ürək çatışmazlığı, xroniki koronar sindromu, anadangəlmə və ya qazanılma ürək qüsurları olanlar, ağır ürək əməliyyatı və ya AKŞ (aorta koronar şuntlama) keçirənlər, yaxın zamanda miokard infarktı keçirənlər, müxtəlif ritm pozuntusu və ya paroksizmal aritmiya tutmalarından əziyyət çəkənlər risk qrupuna daxildirlər. Soyuq aylarda həmin xəstələrin xəstəliklərinin kəskinləşməsi halı və ürək tutmaları iki dəfə artır.***

AZƏRTAC xəbər verir ki, bu sözləri invaziv kardioloq Samir Mustafayev soyuq havalarda ürək-damar xəstəliklərinin kəskinləşməsi barədə danışarkən deyib.



Həkim-mütəxəssis qeyd edib ki, soyuq hava siqaret istifadəçilərinin də ürək-damar xəstəlikləri riskini artırır: "Ümumiyyətlə bu zərərli vərdişi tərgitmək və ya sayını önəmli dərəcədə azaltmaq tövsiyə edilir. Həmçinin xroniki ürək xəstəliyi olanlar soyuq havalarda, açıq məkanlarda idman və ya hər hansı bir fiziki aktivlikdən çəkinməli, çölə çıxdıqda isti geyinməli, sinə və başı isti saxlamalı, kütləvi toplaşma olan yerlərdə tibbi maskadan istifadə etməlidirlər. Onu da qeyd edim ki, bir invaziv kardioloq kimi pasiyentlər mənə daha çox ürəyin işemik xəstəlikləri, ürək çatışmazlığı, aritmiya və arterial təzyiqin yüksəlməsi kimi şikayətlərlə müraciət edirlər".

S.Mustafayev, həmçinin ürək-damar xəstəliklərinin müalicəsində düzgün qidalanmanın və idmanın əhəmiyyətindən də danışıb. Qeyd edib ki, sağlam qidalanma ürək funksiyalarının düzgün işləməsində çox vacib rol oynayır: "Ürək üçün faydalı olan dərmanlarla yanaşı, məşq və pəhriz də sağlamlıq üçün vacib hesab edilir. Həftə ərzində minimum 150 dəqiqə sürətli tempdə gəzmək ürək üçün olduqca faydalıdır. Ümumiyyətlə idmanla məşğul olmaq və bunu həyat tərzinə çevirmək lazımdır. Ürək-damar xəstələri əsasən tərəvəz və meyvələrə üstünlük verməli, qırmızı ət istehlakını mümkün qədər azaltmalıdırlar. Həmçinin duzun təzyiqi qaldırdığını nəzərə alaraq, qidalanmada duzun miqdarını azaltmaq lazımdır. Çox duz istifadəsi ürək çatışmazlığı, infarkt, insult və qəfil ölümə səbəb ola bilər. Duzdan nə qədər az istifadə etsəniz, ürəyiniz bir o qədər sağlam işləyəcək. Digər vacib məqam yağsız yeməklərdir. Risk qrupuna daxil olanlar əsasən qızartma yeməklərdən uzaq durmağa çalışmalıdırlar, çünki yağlı yeməklər damar divarlarında yağ lövhələrinin meydana gəlməsinə səbəb olur ki, bu da gələcəkdə infarkt və insultun yaranma riskini artırır. Qırmızı ət və ya digər qidalardan istifadə zamanı, onları qızartmaq əvəzinə qaynadaraq və ya sobada bişirərək yemək daha faydalıdır".



# İDDİA: Yurgen Klopp "Barselona"nı çalışdıracaq

***Həm futbol üzrə İspaniya La Liqasında, həm də UEFA Çempionlar Liqasında üzücü nəticələr göstərən "Barselona", gələn mövsüm baş məşqçisini dəyişməyi planlaşdırır. "Sport.es" xəbər verir ki, Ronald Kumanın əvəzləyicisi kimi əsas namizəd "Liverpul"un baş məşqçisi Yurgen Kloppdur.***

"Barselona"da bunun keçid mövsümü olduğu düşünülür. Rəhbərlik Ronald Kumana hələlik etimad göstərsə də, onun Kataloniya klubundakı işi uzun görünmür. Mənbə qeyd edib ki, Kumanın 2022-ci ilin yayında bitən müqaviləsi çətin ki, uzadılsın.

"Barselona" üçün sabiq futbolçusu Xavi Ernandesin işinin həmişə əhəmiyyətli olacağı, lakin Yurgen Kloppun əsas namizəd olduğu bildirilib. Klubun Kloppa təklif göndərmək üçün mövsümün sonunu gözlədiyi də qeyd olunub. Hazırda komanda La Liqada 9 turdan sonra 15 xalla turnir cədvəlinin 9-cu pilləsində qərarlaşıb.



# Poqba baş məşqçisini təhqir edib?

***"Mançester Yunayted"in futbolçusu Pol Poqba baş məşqçisi Ule Qunnar Sulşeri təhqir edib. Bu barədə "Daily Mail" nəşri məlumat yayıb. Fransalı yarımmüdaiəçi Premyer Liqanın 9-cu turunda evdə "Liverpul"a 0:5 hesabı ilə uduzduqları görüşdən sonra Sulşerə qarşı təhqiramiz ifadələr işlədib.***

Çalışdırıcı 60-cı dəqiqədə qırmızı vərəqə alan 28 yaşlı oyunçuya iradını bildirərkən o, məşqçisinə qeyri-etik cavab verib. Poqba qırmızı vərəqəyə görə yalnız komanda yoldaşlarından üzr istəyib.

Qeyd edək ki, Pol Poqba 2016-cı ildən "qırmızı şeytanlar"da çıxış edir. Onun klubla müqaviləsi 2022-ci ilin yayına qədərdir.

# Həkim-terapevt: "Qrip yüngül xəstəlik deyil və onu ayaq üstə keçirmək olmaz"

***İki ilə yaxın davam edən pandemiya zamanı qrip epidemiyası az qala unudulub, ən azı həmin xəstəlik bir növ arxa planda qalıb. Qrip mövsümü xəstəlik olduğuna və ona tez-tez yoluxub sağalma baş verdiyinə görə bəzən həmin xəstəliyə ciddi yanaşılmır. Müalicə zamanı isə xəstələr çox vaxt həkimə üz tutmağa ehtiyac görmür, müəyyən dərmanları qəbul etməklə sağalmağa çalışırlar.***

AZƏRTAC xəbər verir ki, həkim-terapevt Emin Məmmədov deyib: "Qrip keçirən bir çox xəstələr uzun müddət ağızda dad, burunda qoxu hissiyyatının itməsini müşahidə edirlər. Mövsümi qriplərdən sonra sinusid xəstəliklərinin fəsadları qalır. Bu, alın və üz ciplərində xroniki iltihabi ağırlaşmalardır. Xəstələr mütəmadi baş və sinir ağrılarından şikayət edirlər. Qripin digər fəsadlarından biri də ağciyər və bronxların zədələnməsidir".



Qrip müalicə edildikdə yeddi gün, edilmədikdə isə daha çox davam edə bilər. Bu zaman orqanizmdə digər xəstəliklərin də baş qaldırması mümkündür. Statistikaya görə, hər il 500 milyon nəfər qripə yoluxur, 2 milyon nəfər isə qrip və onun fəsadlarından həyatını itirir. Ölənlərin 80 faizini uşaqlar, yaşlılar, xroniki xəstəlikləri olanlar təşkil edir.

Qrip yüngül xəstəlik deyil və onu ayaq üstə keçirmək olmaz. Virus daha çox hava-damcı yolu ilə keçir. "Qrip virusuna yoluxanların infeksiyanı ətrafa yaymaması üçün ev şəraitində və yataq rejimində müalicə alması məsləhət görülür, çünki belə şərait infeksiyanın tez sağalması, yan təsirlərinin və fəsadların olmaması üçün daha əlverişlidir", - deyə həkim-terapevt əlavə edib.

Qripə qarşı peyvənd edilməsi bir il ərzində yoluxmanın qarşısını alır. Peyvənd olunan hər on nəfərdən səkkizində xəstəliyə qarşı immunitet güclənir. Daha bir təhlükəli məqam virusun çox tez mutasiya etməsidir. Ona görə də qripin peyvəndi də tez-tez yenilənir.

## ELAN

**Azərbaycan Respublikasının Baş Prokurorluğu tərəfindən Xudaverdiyev Taleh Məmmədağa oğlunun adına verilmiş №018 saylı şəxsi vəsiqə itdiyi üçün etibarsız sayılır.**

*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.**
**QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 4600**